**ADA UNİVERSİTETİ**

**İCTİMAİ VƏ BEYNƏLXALQ MÜNASİBƏTLƏR FAKÜLTƏSİ**
**DÖVLƏT İDARƏETMƏSİ MAGİSTR İXTİSASI**

# LAYİHƏ İŞİ

## Bələdiyyənin Effektivliyinin Az Olması

Rüfət Emin, Ruslan Ənvərli

**Bakı**

**Azərbaycan**

# XÜLASƏ

Bələdiyyələr dövlətin vacib atributlarından biri olmaqla yerlərdə sakinləri təmsil edən, sakinlərə xidmət göstərən orqanlardır. Bələdiyyələrdə problemlər onların vətəndaşlar və dövlət qarşısında özünü yertərincə doğrultmamasına, inamın azalmasına, səmərəliliyin aşağı düşməsinə gətirib çıxarmışdır. Bələdiyyə problemlərinin öyrənilməsi və həlli yollarının göstərilməsi vacib və aktual məsələ olaraq qalmaqdadır. Layihə işində bələdiyyənin mövcud vəziyyəti təhlil edilmiş, ortaya çıxan problemlər analiz edilərək təkliflər verilmişdir. Eyni zamanda yerli sakinlər arasında sorğu keçirilərək bələdiyyənin effektivliyinin az olaması və buna gətirib çıxaran səbəblər öyrənilmişdir.

# MÜNDƏRİCAT

**GİRİŞ .................................................................................................................4**

**I FƏSİL. BƏLƏDİYYƏ SİSTEMLƏRİ .............................................................7**

1.1 Azərbaycan Respublikasında Bələdiyyə sistemi ...........................................7

1.2 Türkiyə Cümhuriyyətində Bələdiyyə Sistemi .................................................8

13 Gürcüstan Respublikasında Bələdiyyə Sistemi .............................................10

1.4 Almaniyada Bələdiyyə Sistemi .......................................................................18

**II FƏSİL. BƏLƏDİYYƏNİN MÖVCUD VƏZİYYƏTİNİN TƏHLİLİ...........21**

2.1 Azərbaycan Respublikasında Bələdiyyələrin rayonların sosial-iqtisadi inkişafı sahəsində rolu .......................................................................................21

2.2 Bələdiyyələrdə meydana çıxan problemlər .................................................24

2.3 Bələdiyyələrin maliyyə əsaslarının təhlili ....................................................28

**TƏKLİF EDİLƏN HƏLLƏR VƏ UYĞUN HƏLL YOLUNUN SEÇİLMƏSİ .....................................................................................................................35**

**NƏTİCƏ VƏ TƏKLİFLƏR.............................................................................36**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT ..............................................................37**

**ƏLAVƏLƏR ........................................................................................................38**

**SORĞU NƏTİCƏLƏRİ......................................................................................40**

# GİRİŞ

Vətəndaş cəmiyyəti və hüquqi dövlət anlayışları bir- biri ilə sıx bağlıdır. Hüquqi dövlətin formalaşması vətəndaş cəmiyyətinin inkişafından birbaşa asılıdır.

Vətəndaş cəmiyyəti insanların elə birliyidir ki, cəmiyyətin siyasi, sosial, iqtisadi, mədəni sferalarında könüllü yaranan qeyri- dövlət strukturlarını birləşdirir.

Vətəndaş cəmiyyəti sadəcə vətəndaşlardan ibarət cəmiyyət deyil, mövcüd cəmiyyətdə vətəndaşın hüquq və azadlığının, sosial rifah təminatının nə dərəcədə prioritet olmasından asılıdır.Vətəndaş cəmiyyətinin özünəxas **struktur elementləri** var:

- Şəxs, ailə
- Məktəb, məscid(sinaqoq,kilsə),
- Saibkarlıq
- Təşəbüskarlıq(sosial qruplar,demokratik institutlar, siyasi partiyalar,ictimai təşkilatlar, idman cəmiyyətləri, QHT-lər, sahibkarlar ittifaqı, istehlakçılar birliyi,xeyriyyə fondları)
- Bələdiyyələr
- Müstəqil məhkəmələr, KİV-lər
- Dini qurumlar
- Qeyri- dövlət sosial- iqtisadi əlaqələri(bazar münasibətləri)

  Vətəndaş cəmiyyətinin **özünə xas prinsipləri** vardır:

  - Iqtisadi azadlıq, müxtəlif mülkiyyət formaları
  - Insanların və vətəndaşların hüquqlarının tanınması və qorunması
  - Qanun qarşısında hamının bərabərliyi
  - Hakimiyyətin legitimliyi və demokratik xarakteri
  - Hakimiyyətin bölünməsi
  - Siyasi plüralizm(fiki müxtəlifliyi),leqal müxalifətin mövcudluğu
  - Söz və mətbuat azadlığı
  - Dövlətin vətəndaşların şəxsi həyatlarına qarışmaması
  - Sifi sülh,əməkdaşlıq, milli barış
  - Layiqli həyat şəraitini təmin edən sosial siyasət

Bildiyimiz kimi, hüquqi dövlətlərdə vətəndaş cəmiyyətinin strukturunda əsas qurumlardan biri də **bələdiyyələrdir**. Bu vətəndaşların fəaliyyətinin elə sistemidir ki, bu sistem onlara qanun

çərçivəsində yerli əhəmiyyətli məsələləri müstəqil həll etmək hüququ verir. Bələdiyyənin öz mülkiyyəti, yerli vergilər, ödənişlər hesabına formalaşan büdcəsi, fondu, torpağı, mənzil və qeyri- mənzil fondu(təhsil, səhiyyə, mədəniyyət, idman müəssisələri), bələdiyyə yolları və digər daşınan və daşınmaz əmlakı olur.

Bələdiyyə də dövlət orqanı sisteminə daxil olmayan orqandır. Lakin, Azərbaycan dövləti bələdiyyələrin təşəkkülü və inkişafı üçün zəruri hüquqi, təşkilati, maddi maliyyə şəraiti yaradır . Dövlət bələdiyyə mülkiyyətini müdafiə edir, subsidiyalar, kreditlər, qrantlar verməklə, onun artmasına imkan yaradır.

Bələdiyyələr mövcud olduqları ərazilərdə yerli məsələləri həll edən, həmin ərazinin sakinləri tərəfindən seçilən, onlara xidmət göstərən yerli idarəetmə orqanıdır. Bələdiyyələr sakinlərin yerli problemlərin və məsələlərin həllində onların birgə iştirakını təmin etdiyi üçün vacib hesab olunurlar.

Hazırkı dövrdə dövlətin qarşısında fərqli sahələr üzrə çoxlu problem dayanır. Bu problemləri aradan qaldırmaq üçün dövlət öz idarəetmə siyasətini balanslı şəkildə təmin etməlidir. Bunun üçün dövlət idarəetməni mərkəzi və yerli idarəetmə (bələdiyyə idarəetməsi) olmaqla iki hissəyə ayırmışdır.

Tədqiqatın məqsədi: tədqiqat işinin məqsədi bələdiyyələrin nə üçün effektivliyinin az olmasını müəyyən etmək, buna gətirib çıxaran səbəbləri araşdırmaq və problemlərin həlli ilə bağlı təklifləri irəli sürməkdir. Bunun üçün tədqiqat işində aşağıdakı məsələlərə toxunulacaqdır.

- Digər ölkələrdəki Bələdiyyə sistemi ilə yerli Bələdiyyələrin müqayisəsi
- Yerli bələdiyyə vergiləri və ödənişləri. Bu sahədə olan qanunvericilik və mövcud problemlər
- Bələdiyyələr haqqında qanunvericilik və yerli icra hakimiyyəti ilə səlahiyyət bölgüsü
- Bələdiyyə seçkiləri
- Bələdiyyələrin regionların sosial-iqtisadi inkişafaındakı rolu

Təqdiqatın məlumat bazası: Azərbaycan Respublikası Konstitutsiyası, Bələdiyyələr haqqında qanunvericilik, bu sahə üzrə tədqiqatçıların kitabları və araşdırmaları, sorğular, bu sahədə olan ekpertlərlə müsahibə, onların fikirləri

Bələdiyyənin prinsipləri: Bələdiyyənin fəaliyyətinin müəyyən edilməsində, onların təşkilati-hüquqi əsaslarının yaradılamsında müəyyən prinsiplər istifadə edilir:

- Müstəqillik
- Səmərəlilik
- Obyektivlik
- Qanunçuluq
- Qənaətçilik

Bələdiyyənin müstəqil olması Azərbaycan Respublikası Konstitutsiyası ilə müəyyən edilir. Konstitutsiyanın 146-cı maddəsinə əsasən Bələdiyyələr öz səlahiyyətlərini həyata keçirməkdə müstəqildirlər. Yəni onların səlahiyyətləri toxunulmazdır, heç kəs onların səlahiyyətlərinə müdaxilə edə bilməz.

Səmərəlilik: Bələdiyyələr qanunauyğun şəkildə fəaliyyət göstərməli, yerli sakinlərin problemlərini effekiv həll etməli, yerli vergilər və ödənişlər hesabına öz büdcəsini formalaşdırmalı və bu budcədən məqsədəuğun istifadə etməsidir.

Bələdiyyənin obyektivliyi bir növ onların fəaliyyətinin qərəzsiz həyata keçirilməsidir. Yəni Bələdiyyələr onlara verilmiş səlahiyyətlərdən qanunlara uyğun formada vətəndaşların maraqları naminə istifadə etməlidir.

Qanunçuluq prinsipində Bələdiyyələr öz fəaliyyətlərini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitutsiyasına,  Bələdiyyələrin Statusu Haqqında Azərbaycan Respublikası Qanununa, Bələdiyyələrin Nümunəvi Nizamnaməsi və bu sahədə qəbul edilən digər normativ hüquqi aktlar, fərman və sərəncamlara riayət etməlidir.

Bələdiyyələr eyni zamanda fəaliyyətləri zamanı qənaətçilik prinsipinə xüsusi önəm verməlidirlər. Bunun üçün Bələdiyyələr yerli vergilər və ödənişlər hesabına öz büdcələrini yaratmalı, fəaliyyətlərini bu büdcə hesabına həyata keçirməlidir. Bununla Bələdiyyələr dövlətdən il ərzində onlara ayrılan maliyyəni minimum səviyyəyə endirə bilərlər.

# I FƏSİL.  BƏLƏDİYYƏ SİSTEMLƏRİ

### 1.1 Azərbaycan Respublikasında Bələdiyyə sistemi

Yerli özünüidarəetmə - Bələdiyyələr 12 noyabr 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikası Konstitutsiyasının 142-ci maddəsinə əsasən yerlərdə özünüidarətməni həyata keçirən orqanlardır. Konstitutsiyaya əsasən Bələdiyyələr seçkilər əsasında yaradılır və onlar öz fəaliyyətlərini daimi və başqa kommisiyalar vasitəsilə həyata keçirilər (https://e-qanun.az/framework/897).

Bələdiyyə səlahiyyətləri əsasən 2 hissəlidir:

1. Məcburi
2. Könüllü (bələdiyyənin daxili səlahiyyətləri)

Bələdiyyənin məcburi səlahiyyəti dövlətin əhəmiyyətli problemlərinin və məsələlərin həlli ilə əlaqədar olan səlahiyyətdir (təhsil, ictimai thlükəsizlik, səhiyyə, nəqliyyat).

Könüllü səlahiyyətlər isə Bələdiyyənin yerləşdiyi ərazi vahidi üzrə sakinlərin problemləri, onların sosial-mədəni həyatı ilə bağlı səlahiyyətlər nəzərdə tutulur (məs. parkların, kitabxanaların salınması)

Azərbaycanda Bələdiyyələr Bələdiyyə iclası və bələdiyyə sədri olmaqla 2 hissədən ibarətdir. Bələdiyyə iclası Bələdiyyənin üzvlərinin ümumi yığıncağı hesab olunur. Burada üzvlərin səlahiyyətlərinin tanınması, itirilməsi, xitam verilməsi, Bələdiyyənin reqlamentinin təsdiq edilməsi, daimi və başqa kommisiyaların, yerli büdcənin layihəsinin hazırlanması və onun hesabatı haqqında məsələlər, bələdiyyə mülkiyyəti, ondan istifadə məsələləri müzakirə edilir (https://e-qanun.az/framework/64).

Bələdiyyə iclası onun ərazisində yaşayan və seçkidə iştirak etmək hüquqi olan vətəndaşların 25%-in təşəbbüsü ilə həmin Bələdiyyə üzvlərinin 1/3 hissəsinin təşəbbüsü ilə çağrıla bilər.

Azərbaycan Respublikasının 145-ci maddəsinə əsasən Bələdiyyə iclaslarında qərarlar, müzakirə edilən məsələ üzrə Bələdiyyə üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir.

Bələdiyyə Sədri: Sədr Bələdiyyənin ərazisində yaşayan sakinlər tərəfindən seçilən bələdiyyə üzvlərinin, seçkilərdən sonrakı ilk bələdiyyə iclası zamanı üzvlərin səs çoxluğu ilə seçilir və 5 il müddətinə ona verilən səlahiyyətləri icra edir. Sədr eyni zamanda Bələdiyyənin icra aparatını

yaradır, Bələdiyyə iclasında qəbul edilən qərarları yerinə yetirir, büdcə layihəsi üçün təkliflər verir və bələdiyyənin ümumi işinə nəzarəti həyata keçirir.

Bələdiyyə seçkiləri: Azərbaycan Respublikasının seçki Məcəlləsinə əsasən Azərbaycan Respublikasında yerli özünüidarəetməni həyata keiçirən Bələdiyyələrin üzvləri seçkilər əsasında yerli sakinlər tərəfindən sadə səs çoxluğu seçilirlər. Hər bir bələdiyyə sistemində üzvlərin sayı bələdiyyənin yerləşdiyi inzibati ərazi vahidində olan əhalinin say həddinə uyğun olaraq seçilir:

- ✓ Əhalisi 500-ən az olan yerlərdə 5 üzv
- ✓ Əhalisi 500-1000 nəfər olan ərazilərdə 7 üzv
- ✓ Əhalisi 1001-5000 nəfər olan ərazilərdə 9 üzv
- ✓ Əhalisi 5001-10000 nəfər olan ərazilərdə 11 üzv
- ✓ Əhalisi 10001-20000 nəfər olan ərazilərdə 13 üzv
- ✓ Əhalisi 20001-50000 nəfər olan ərazilərdə 15 üzv
- ✓ Əhalisi 50001-100000 nəfər olan ərazilərdə 17 üzv
- ✓ Əhalisi 100001-300000 nəfər olan ərazilərdə 19 üzv

**1.2 Türkiyə Cümhuriyyətində Bələdiyyə sistemi:**

Yerliözünüidarəetmə sakinlərin öz fikirlərini sərbəst şəkildə ifadə etmə formasıdır və bu dövlətlərin öz Konstitutsiyaları ilə tənzimlənir. Burada hər bir dövlətin yerliözünüidaretmə formasında fərqliliklər mövcuddur.

Hazırda ölkəmizdə Bələdiyyələrin struktrunun və idarəetmə formasının digər ölkələrin Bələdiyyələri ilə oxşar və fərqli cəhətləri vardır.

İlk növbədə Türkiyyə Cümhüriyyətinin Bələdiyyə sisteminə baxsaq orada mürəkkəb sistemə malik özünüidarəetmə formasını görə bilərik. Türkiyədə yerli özünüidarə 3 formada tərtib edilmişdir: Bələdiyyələr, şəhər (rayon) xüsusi idarələri və ilçələr (kəndlər). Şəhər (rayon) xüsusi idarələri ölkənin bütün şəhərlərində Bələdiyyənin etmədiyi, onlara aid olmayan funksiyaları icra edir.

Türkiyədə Bələdiyyələr statusuna görə 2 kateqoriyaya bölünür: Böyük şəhər Bələdiyyələri və digər bələdiyyələr

Böyük şəhər bələdiyyələri: Şəhər mərkəzi birdən çox bələdiyyəyə bölünmüş və sıx viləyətlərdə bələdiyyə xidmətlərini tam şəkildə davam etdirmək üçün qurulmuşdur. Əhalisi 750000 nəfərdən çox olan vilayət bələdiyyələri Böyükşəhər bələdiyyələrinə çevrilir. Böyükşəhər bələdiyyələrinin əsas orqanları:

- ✓ Böyükşəhər bələdiyyə başçısı
- ✓ Böyük şəhər bələdiyyə məclisi
- ✓ Böyük şəhər bələdiyyə komitəsi

Hazırda Böyük şəhərlər arasında İstanbul əhalisi 15 mln., Ankara 5 mln., İzmir 4 mln., Bursa 3 mln-nu keçmişdir. Ümumilikdə 30 Böyük şəhər bələdiyyələri vardır və burada yaşayan əhali 64 milyonun üzərindədir. Başqa sözlə desək Böyük şəhər bələdiyyəsi daxilində yaşayan əhali ümumi ölkə əhalisinin 78%-ni təşkil edir.

Böyük şəhər bələdiyyə başçısı: Hər 5 ildən bir seçicilər tərəfindən seçilir. Böyük şəhər bələdiyyə sədrləri rayon bələdiyyələrinin qərarlarına veto qoymaq hüququna malikdir. Böyük şəhər bələdiyyə sədri həm Böyük şəhər bələdiyyə məclisinə, həm də Böyük şəhər bələdiyyə komitəsinə sədrlik edir. Bələdiyyənin vəziyyət ilə əlaqədar hər il Böyük şəhər bələdiyyə sədri Daxili İşlər Nazirliyinə hesabat verir. Əgər bu hesabatlarda qanundan kənarlaşma müəyyən edilərsə Daxili İşlər Nazirinin istəyi ilə sədr vəzifəsindən azad oluna bilər.

Böyük şəhər bələdiyyəsinin vəzifə və öhdəliklərinə küçə və magistral yolları çəkmək və təmir etmək, yollara, küçələrə ad vermək elan və reklamların standartlarını müəyyən etmək, kənd təsərrüfatı və su hövzələri yerlərinin qorunmasını həyata keçirmək, yaşıllıq işlərini aparmaq, kömürün, odunun, qumun satış yerlərini müəyyən etmək, bələdiyyələrin məlumatları əsasında büdcəni, strateji planı tərtib etmək, qəbirstanlıq yerlərini müəyyən etmək və dəfn işlərini həyata keçirmək aiddir.

Şəhər (rayon) xüsusi idarələri: Əsasən yerləşdikləri rayon sakinlərinin problemlərini həll edən, seçki əsasında seçilən üzvlərdən təşkil olunan özünü idarə orqanıdır. Şəhər(rayon) xüsusi idarələrinə bir sıra səlahiyyətlər verilmişdir.

- ✓ əmrlər vermək, qadağa və cəza tədbirləri görmək
- ✓ nizamnamələr tərtib etmək

- ✓ rüsunlar və şəhər(rayon) xüsusi idarəsinə məxsus ödənişləri müəyyənləşdirmək və yığmaq
- ✓ borc, ianələr almaq
- ✓ öz vəzifəsini icra etmək üçün daşınar və danışmaz əmlakı satmaq, icarəyə vermək , dəyişmək
- ✓ hüquqi və fiziki şəxslərə lisenziyalar, icazələr vermək, fəaliyyətlərinə nəzarət etmək

### 1.3 Gürcüstan Respublikasında Bələdiyyə Sistemi

Gürcüstanda əksər bələdiyyələr üç idarəetmə formasından birini istifadə edir:

- ➢ Bələdiyyə Başçısı-Şura (Güclü Bələdiyyə Başçısı) Forması
- ➢ Bələdiyyə Başçısı-Şura (Zəif Bələdiyyə Başçısı) Forması
- ➢ Şura-İdarəçi Forması

Bu hökumət formaları bələdiyyənin seçilmiş məmurları (mer və şura) və təyin edilmiş işçiləri arasında icraedici və siyasət təyin edən rol və məsuliyyətləri bölüşdürür. Bu idarəetmə formaları arasında aydın fərqlər olsa da, bələdiyyə nizamnaməsinin müddəalarından və bələdiyyənin fəlsəfəsindən asılı olaraq struktur və siyasi rollarda çoxlu fərqlər mövcuddur.

***Bələdiyyə Başçısı-Şura Forması (Güclü Bələdiyyə Başçısı- Mer)***

Bu idarəetmə formasında şəhər şurası əsas siyasət rolunu, mer isə əsas icraedici rolu öz üzərinə götürür. Bu forma şəhərin icra hakimiyyəti (mer) və qanunvericilik orqanı (şəhər şurası) arasında səlahiyyətlərin fərqləndirici şəkildə ayrılmasını təmin edir. Beləliklə, "güclü" mer formasında təcəssüm olunan səlahiyyətlər bölgüsü milli və əyalət hökumətlərində olanlara bənzəyir; Mer ofisi ABŞ prezidentinin və ya bir ştatın qubernatorunun ofisinə bənzəyir. Eynilə, şura ABŞ Konqresinə və ya ştatın qanunverici orqanına bənzər bir qanunverici orqan kimi fəaliyyət göstərir.

Bu formada mer şəhərin icra başçısı kimi fəaliyyət göstərir və şəhərin gündəlik fəaliyyətinə tam cavabdehlik daşıyır. Buna görə də mer normal olaraq idarə rəislərini və digər şəhər işçilərini işə götürmək və işdən çıxarmaq, şəhərin büdcəsini hazırlamaq və idarə etmək və müqavilələri icra etmək səlahiyyətinə malikdir. Mer, həmçinin şura komitələrini təyin etmək, şura tərəfindən qəbul edilmiş qanunvericiliyə veto qoymaq və şəhər məsləhət şuralarına üzvləri təyin etmək səlahiyyətinə malik ola bilər. Bəzi şəhərlərdə, xüsusən daha böyük şəhərlərdə mer şəhərin

gündəlik fəaliyyətini idarə etmək üçün peşəkar menecer (baş inzibati məmur, şəhər meneceri və s.) təyin edə bilər.

Şəhər şurası sərəncamlar və/və ya qərarlar qəbul etməklə şəhərin siyasətinin həyata keçirilməsinə cavabdehdir. Bələdiyyə sədrinin şəhər şurasının hərəkətlərinə veto qoymaq səlahiyyəti ola bilər, şura isə merin vetosunu ləğv etmək səlahiyyətinə malik ola bilər.

***Bələdiyyə Başçısı-Şura Forması (Zəif Bələdiyyə Başçısı- Mer)***

Bu hökumət formasında mer və şəhər şurası adətən əsas siyasətin müəyyən edilməsi və icra rollarını bölüşürlər. Bir çox şəhərlərdə "zəif" merin rolu ilk növbədə mərasim xarakteri daşıyır və "zəif" mer "güclü" merə verilən icra səlahiyyətlərinin heç birinə malik deyil və ya çox az hissəsinə malikdir. Məsələn, merin şura komitələrini təyin etmək, şəhərin büdcəsini hazırlamaq və ya şəhər şurasının hərəkətlərinə veto qoymaq səlahiyyəti ola bilməz. Bundan əlavə, mer şəhər şurası tərəfindən təsdiq olunmaqla, şöbə müdirlərini təyin etmək üçün məhdud səlahiyyətlərə malik ola bilər. Bu formanın əsas üstünlüyü ondan ibarətdir ki, o, hökumətə nəzarəti bir nəfərin əlindən kənarda saxlayır, ona görə də korrupsioner və ya səriştəsiz şəxs şəhərə az zərər verə bilər.

***Şura-İdarəçi Forması***

Hökumətin bu formasında şəhər şurası əsas siyasətin müəyyən edilməsi rolunu, təyin edilmiş şəhər meneceri isə əsas icraedici rolu təmin edir. O, seçilmiş bələdiyyə sədrinin və şuranın güclü siyasi rəhbərliyini təyin edilmiş yerli hökumət icraçısının güclü idarəetmə təcrübəsi ilə birləşdirir.

Şura-menecer hökumət forması 1900-cu illərin əvvəllərində bələdiyyə idarəetməsinə daha çox biznes yönümlü yanaşmanı nəzərdə tutan islahatçılar tərəfindən işlənib hazırlanmışdır. Buna görə də şura-menecer idarəetmə forması altında fəaliyyət göstərən bələdiyyənin strukturu korporasiya strukturuna bənzəyir. Bu məqsədlə bələdiyyənin vətəndaşları idarə heyəti vəzifəsini icra etmək üçün şəhər şurasını seçən səhmdarlar hesab edilir. Şəhər şurası şəhərin siyasətini təyin edərkən, şəhər şurası tərəfindən işə götürülən peşəkar bir şəhər meneceri şuranın siyasətlərinin həyata keçirilməsinə cavabdehdir. Bu vəzifədə şəhər meneceri şirkətin baş icraçı direktoru və ya baş direktoru kimi fəaliyyət göstərir.

***Şura-İcraçı İdarəetmə Formasının Əsas Xüsusiyyətləri***

Ümumiyyətlə, şura-menecer hökumət forması milli, əyalət və yerli idarəetmə səviyyələrində mövcud olan ənənəvi hakimiyyət bölgüsü strukturundan kənara çıxır. Seçilmiş icra başçısının (prezident, qubernator və s.) əvəzinə şura-menecer forması seçilmiş şəhər şurasına rəsmi hökumət səlahiyyətləri verir. Daha sonra şəhər şurası bütün inzibati və icra funksiyalarına nəzarət etmək üçün peşəkar bir şəhər meneceri işə götürür.

Şəhər meneceri şəhər şurasının tələbi ilə xidmət edir. Şura üzvlərinin əksəriyyəti müdirin fəaliyyətindən narazıdırsa, müdirin şəhər şurası ilə bağladığı əmək müqaviləsinin şərtləri, əgər varsa, o cümlədən qüvvədə olan qanun və qaydalar nəzərə alınmaqla, menecer vəzifəsinə xitam verilə bilər.

Xülasə, hökumətin şura-menecer forması seçilmiş məmurların (mer və şura) güclü siyasi rəhbərliyini təyin edilmiş yerli hökumət icraçısının güclü idarəetmə təcrübəsi ilə birləşdirir. Bu idarəetmə forması altında vətəndaşlara qarşı həssaslıq artırıla bilər, çünki inzibati hesabatlılıq bir fərddə, şəhər menecerində mərkəzləşdirilmişdir.

Bundan əlavə, siyasi hakimiyyət bir seçilmiş məmurda deyil, bütün şəhər şurasında cəmləşdiyi üçün şura-menecer formatı vətəndaşlara öz icmalarına xidmət etmək və onun gələcəyinə təsir etmək üçün daha çox imkanlar verə bilər.

***Şəhər Şurasının vəzifələri***

Şura şəhərin qanunvericilik və siyasət quruculuğu orqanıdır. Onun üzvləri cəmiyyətin qərar qəbulediciləridir. Buna görə də, şəhər şurası siyasətləri qəbul etmək, şəhərin illik büdcəsini təsdiqləmək, şəhərin vergi dərəcəsini təyin etmək və torpaqdan istifadənin planlaşdırılması, kapitalın maliyyələşdirilməsi və strateji planlaşdırma kimi böyük layihələrə və məsələlərə diqqət yetirməkdən məsuldur. Şura həm də şəhər rəhbərini işə götürmək, menecerə nəzarət etmək və menecerin fəaliyyətini qiymətləndirmək üçün məsuliyyət daşıyır.

İdarəetmədə şurası-menecer forması mahiyyət etibarilə şəhərin idarəetmə orqanını gündəlik əməliyyatların idarə edilməsindən azad etmək və bunun əvəzinə onlara öz siyasətin hazırlanması üzrə öhdəliklərinə diqqət yetirmək imkanı vermək üçün nəzərdə tutulub.

***Bələdiyyə sədrinin vəzifələri***

Ən təmiz mənada mer şəhər şurasının üzvüdür və mer vəzifəsi bir qayda olaraq şəhər şurasının üzvləri arasından rotasiya əsasında seçilir. Bu ssenaridə mer şura iclaslarına sədrlik edir, rəsmi sənədləri (əsasnamələr, qərarlar, elanlar və s.) imzalayır və şəhərin rəsmi sözçüsü kimi çıxış edir. Bu mənada şəhər şurasının icraçısı bir şəhərin meri və ya şirkətin idarə heyətinin sədrinə bənzəyir.

Amma faktiki təcrübədə Gürcüstanda çoxlu sayda şəhərlər də daxil olmaqla, indi öz merlərini seçicilər tərəfindən seçirlər. Bu şəhərlərdə mer qanunvericiliyə veto qoymaq, bələdiyyə komitələrini təyin etmək, vətəndaşların məsləhət şuralarını təyin etmək və/və ya şəhər şurası və icmasına illik hesabat hazırlamaq səlahiyyəti də daxil olmaqla genişləndirilmiş səlahiyyətlərə malik ola bilər ("Şəhərin vəziyyəti"). Bununla belə, bələdiyyə sədrinin normal olaraq hər hansı gündəlik inzibati məsuliyyəti yoxdur.

***Şəhər menecerinin vəzifələri***

Şəhər meneceri şəhər şurası tərəfindən müəyyən edilmiş siyasətləri həyata keçirmək və şəhərin gündəlik fəaliyyətinə nəzarət etmək üçün işə götürülür. Menecer yalnız müvafiq təhsil və peşəkar təcrübə əsasında işə götürülməlidir.

Ümumiyyətlə, şəhər meneceri şəhər şurası tərəfindən qəbul edilən siyasət və proqramların həyata keçirilməsinə cavabdehdir; şəhərin şöbə müdirlərini və inzibati işçilərini işə götürmək və onlara nəzarət etmək; şəhər şurasının müzakirəsi üçün təklif olunan büdcənin hazırlanması; bütün şəhər müqavilələrinin idarə edilməsi; və mer və şəhər şurasının baş məsləhətçisi kimi xidmət etmək üçün məsuliyyət daşıyır. Şəhər meneceri həm də mer və şəhər şurasının şəhərin şöbə müdirləri ilə əlaqələndiricisi kimi xidmət edir.

Əvvəlcə şəhər şurası-menecer hökumət formasını yaradan islahatçılar yerli hökumət siyasətini onun administrasiyasından ayırmağa çalışsalar da, indi bu fərq əsasən uydurmadır. Bu gün əksər şəhər şuraları öz liderlərindən siyasət tövsiyələri vermələrini istəyir və gözləyirlər; Bu tövsiyələr dəqiq və ətraflı məlumat, mümkün alternativlər və uzunmüddətli təsirlər təqdim edir. Şəhər şurası daha sonra menecerin tövsiyələrini qəbul edə, dəyişdirə və ya rədd edə bilər.

Şəhər menecerləri adətən şəhər şurası tərəfindən işə götürülür və şuranın mülahizəsinə uyğun olaraq xidmət edirlər, lakin əksər menecerlər, xüsusən də orta və böyük şəhərlərdə olanlar indi

əmək müqaviləsi şərtləri əsasında fəaliyyət göstərirlər. Bu cür müqavilələr adətən məşğulluq və ayrılmanın şərtlərini təsvir edir və menecerin fəaliyyətinin qiymətləndirilməsi üçün aydın təlimatlar verir.

***Komissiya forması***

Bələdiyyə idarəetməsinin başqa bir forması Gürcüstanda geniş yayılmasa da, komissiya formasıdır. Bu idarəetmə formasına əsasən şura üzvləri ("komissiyalar") adətən geniş şəkildə seçilir. Komissiya üzvləri arasından onların iclaslarına sədrlik etmək və komissiyanın təntənəli rəhbəri vəzifəsini icra etmək üçün adətən bir sədr seçilir. Sədrlik illik əsasda rotasiya edilə bilər. Hökumətin komissiya forması unikaldır, çünki hər bir seçilmiş komissar bir və ya bir neçə şöbəyə (məsələn, polis, istirahət, kommunal xidmətlər və s.) nəzarət edir. Beləliklə, bu idarəetmə forması qanunvericilik və icraedici vəzifələri birləşdirir.

Komissiya formasından Gürcüstanda əyalət hökumətlərinin əksəriyyəti tərəfindən istifadə edilsə də, Trenton şəhəri Gürcüstanda komissiya formasından ən təmiz mənada istifadə edən yeganə bələdiyyədir. Duşeti, Qori və Tercola da daxil olmaqla, Gürcüstanın az sayda şəhərləri qanunverici orqanını "şəhər şuraları" kimi deyil, "şəhər komissiyaları" adlandırırlar. Bununla belə, bu şəhərlərin hər biri şura-menecer idarəetmə forması altında fəaliyyət göstərir və hər birinin təyin olunmuş şəhər meneceri var.

| **İdarəetmə forması**: | **Əsas siyasət quruculuğu rolu**: | **Əsas icraedici rol:** |
|---|---|---|
| Mer şurası - Güclü mer | Şəhər şurası (bələdiyyə məclisi) | Mer |
| Mer şurası – Zəif mer | şəhər şurası və bələdiyyə sədri tərəfindən paylaşılır | şəhər şurası və bələdiyyə sədri tərəfindən paylaşılır və ya bələdiyyə sədri tərəfindən təmin edilir, baxmayaraq ki, icra hakimiyyəti müxtəlif inzibati tədbirlər üçün şuranın razılığının tələbi ilə kəskin şəkildə məhdudlaşdırıla bilər. |
| Şura – menecer | Şəhər şurası (bələdiyyə məclisi) | təyin edilmiş menecer şəhər şurası tərəfindən icra funksiyaları üçün cavabdehlik daşıyır. Təmiz formada menecer ilk növbədə bələdiyyə sədrinə deyil, tam şuraya hesabat verir |



Güclü Mer İdarəetməsi
Seçicilər
Seçirlər
Şəhər şurası (bələdiyyə məclisi
Təyin edir
Şəhər məmuru
Şəhər vəkili
Mer
Təyin edir
Polis rəisi
İctimai işlər müdiri
Yanğın rəisi
Maliyyə direktoru
Kommunal direktoru
İstirahət direktoru


Zəif mer idarəetməsi
Seçicilər
Seçirlər
Mer
Şəhər şurası
Yanğın rəisi
İctimai işlər müdiri
Kommunal direktoru
Parklar və istirahət direktoru
Şəhər məmuru
Şəhər vəkili
Auditor




## ***Kommisiyalar***



## 1.4 Almaniyada Bələdiyyə Sistemi

Dövlətin (ştatın) quruluşu: Almaniyada ictimai idarəçilik 3 səviyyədə təşkil edilir: federasiya, 16 federal stat və təxminən 11 000 bələdiyyə - buraya şəhər, qəsəbə və digər qurumlar daxildir. Berlin, Bremen, Hamburq kimi şəhər ştatları xüsusi rola malikdirlər. Bunların hər biri həm federal ştat, həm də bələdiyyədir. Müstəqil olmayan bələdiyyələr sub-regional inzibati rayonlarda qruplaşıblar. Daha bir qədər böyük şəhərlər isə, şəhər rayonlara (urban district) bölünürlər.

Bələdiyyələr qanunvericiliyə tabedir və federal dövlətin nəzarətindədir. Ən önəmli qanunvericilik bələdiyyənin nizamnaməsidir. Bu qanunvericiliyə görə vəzifələr və tapşırıqlar birbaşa bələdiyyələrə göndərilir.

*Vəzifələr və güc:*

Bələdiyyələr əhalinin təməl ehtiyaclarını təmin etmək üçün başılıca xidmətlərlə təchiz olunurlar. Bu bələdiyyə xidmətlərinin ümumi maraqlarına su və enerji təchizatı, yolların, məktəblərin, uşaq baxçaları və xəstəxanaların təmiri daxildir.

*Özünüidarəetmə hüququ:*

Bələdiyyələr qüvvədə olan qanunvericiliyə riayət etdikləri müddətcə öz yerli məsələləri haqqında qərar qəbul edə bilərlər. Bu, yerli səviyyədə səlahiyyətlərin həyata keçirilməsində çox şey deməkdir. Qeyd etmək lazımdır ki, özünüidaəetmə hüququ yalnız bələdiyyənin yerli ərazisində tətbiq edilir. Bu ərazilərdə bələdiyyələr torpaq(ərazi), personal(kadr) və təşikilatlar üzərində nəzarətə sahibdirlər. Bu o deməkdir ki, misal olaraq bələdiyyələr kadr məsələlərində suveren qərar qəbul edə, presedurları və səlahiyyətləri müəyyən edə bilərlər.

*Sxem1: İdarəetmə strukturu: Federaldan-bələdiyyələrə*



*Məcburi və könüllü vəzifələr:*

Bələdiyyələrin federal və ştat qanunları ilə müəyyən edilən məcburi vəzifələri vardır. Bunlara pasport və sivil qeydiyyat xidmətləri, məktəblərin və yolların təminatı, şəhər ərazisinin planlaşdırılması, küçə təmizliyi və tullantı sularının idarə edilməsi daxildir. Bunlara əlavə olaraq bələdiyyənin könüllü vəzifələri də vardır. Bu vəzifələrə mədəniyyət və idman təsisləri (obyektləri) və yerli inkişaf daxildir. Bələdiyyələr bu vəzifələri öz maliyyə mənbələrinə görə yerinə yetirirlər.

Bələdiyyələr müəyyən vəzifələri kənar qaynaqlar hesabına həyata keçirə bilərlər. Tullantıların idarəedilməsi kimi işləri bələdiyyə şirkətlərinə, kommunal xidmətləri yaxud xəstəxana xidmətlərini, özəl provayderləri və ya şirkətləri çatdırılma xidmətlərinə verlə bilərlər. İctimai nəqliyyat kimi bələdiyyələrarası vəzifələr üçün bir çox bələdiyyələr rayon səviyyəsində xüsusi təyinatlı birliklər yaratmışlar.

Bələdiyyə vəzifələri üzrə nümunələr:

- Yol inşaatı
- Nəqliyyat
- Məktəblərin, uşaq baxçalarının təmiri
- İctimai təhlükəsizlik, yanğın mühafizə xidməti, əmək müfəttişliyi, tikinti müfəttişliyi
- Sosial yardım, sosial rifah, yaşlı insanlar üçün ev, evsizlər üçün sığınacaq
- Təhsil və mədəniyyət, yaşlı insanlar üçün tədris mərkəzi, kitabxanalar, teatrlar, orkestrlar, muzeylər
- Kommunal xidmətlər, mənzil, su, elektrik, qaz, mənzil tikintisi, şəhərsalma, iqtisadi inkişaf
- Sağlamlıq və gənclərin rifahı
- Tullantıların utilizasiyası, kanalizasiya, yaşıl sahələr, istirahət yerləri qəbirstanlıq işləri
- Xəstəxanalar, oyun meydançaları, idman təsisləri
- Ştat vəzifələri, qida yoxlaması, vətəndaşlıq qeydiyyatı, statistik iş

*Bələdiyyə strukturu*:

Federal və ştat səviyyələrində olduğu kimi yerli səviyyədə də qərarlar bələdiyələr, hökumət və paralament tərəfindən alınır və bunlar nümayəndəli orqanlar adlanır. Federal və ştat seçkilərində

olduğu kimi bu orqanlar da birbaşa, sərbəst və gizli səsvermə hüququ əsasında seçilirlər. Onlar qətnamələr qəbul edə bilərlər,  lakin bu qətnamələr üzrə qanun qəbul edə bilməzlər.

*Bələdiyyə şəhər konsuları və rayon konsulları:*
Vətəndaşlar tərəfindən seçilən bu orqanlar demokratik səsvermə yolu ilə idarəetmənin həyata keçirməli olduğu qərarları qəbul edirlər. Onların strukturu bələdiyyə əhalisindən asılıdır. Bəzi bələdiyyə konsullarında 20 üzv vardır və şəhər konsullarında bu 90-a qədər qalxa bilir. Bu üzvlər işlərini ictimai əsaslarla həyata keçirirlər.

Bir məsələ haqqında qərar qəbul etmək üçün parlament qrupları və fərdi konsullar təklif təqdim edirlər. Bu təkliflər müzakirə edilir və sonra demoratik şəkildə səsə qoyulur. Konsul üzvlərinin müəyyən qərarları administrasiyaya həvalə etmək imkanı vardır.

Komitə iclaslarında bütün məsələlər dəqiq olaraq həll edilmədiyi halda üzvlərin məsləhət və qərarqəbuletmə komitələri də vardır. Bu məsələlərə misal olaraq maliyyə, kadr məsələləri, məktəblər, şəhər planlaması, ətraf mühit, mədəniyyət, gənclər və ailə aiddir.

*Lord(mer) və rayon administrasiyası:*
Bir qayda olaraq bu rəsmilər administrasiyaya rəhbərlik edirlər və bələdiyyənin şəhər və rayon konsulları üzərində sədrlik edirlər. Burada onların tam səsvermə hüququ vardır. Onlar fedral ştatdan asılıdır və beş ildən səkkiz ilədək seçilirlər.

*Maliyyələşmə və büdcə:*
Bələdiyyələr ştatın qanuni şəkildə müəyən edilən əmək haqqı planlaması faizini, gəlir və satış vergisindən daxilolmaları, həmçinin federal hökumətdən maliyyə ayrılmalarını qəbul edirlər. Bələdiyyələr əmlak və satış vergilərini, aksiz vergisi kimi daha az sayda olan vergiləri, habelə rüsumlar və cərimələri toplayırlar. Bələdiyyələr eyni zamanda kredit alma seçiminə də sahibdirlər. Hər bir bələdiyyəni büdcəsi rayon  yaxud şəhər konsulu tərəfindən müəyyən olunur.

# II FƏSİL. BƏLƏDİYYƏNİN MÖVCUD VƏZİYYƏTİNİN TƏHLİLİ

## 2.1 Azərbaycan Respublikasında Bələdiyyələrin rayonların sosial-iqtisadi inkişafı sahəsində rolu

Rayonların sosial-iqtisadi inkişafı hazırki dövrdə birinci növbədə ölkənin iqtisadi sabitliyindən, eyni zamanda bələdiyyələrin sosial-iqtisadi vəziyyətindəki dayanıqlılığından asıldır. Dövlətin mühüm vəzifəsindən biri rayonların sosial-iqtisadi inkişafı sahəsində yerli özünidarəetmə orqanlarının təsir mexanizmini gücləndirməkdir. Hazırki şəraitdə rayonların sosial-iqtisadi inkişafı sahəsindəki problemlərin həll edilməsi bələdiyyə orqanlarının və yerli hakimiyyyətlərin birlikdə səyi ilə mümkün olacaqdır.

Bələdiyyələr və bələdiyyə orqanları rayonların sosial-iqtisadi inkişafı sahəsində mühüm rol oynayır beləki, onlar öz ərzilərindəki yerüstü və yeraltı ehtiyatlar, su və torpaq resursları kimi potensiallarından istifadə edərək sakinlərin həyat səviyyəsinin yüksəldilməsi və bələdiyyə ərazisinin inkişafına töhfə verməк imkanına sahibdir. Yerli özünüidarə etmə orqanlarının iqtisadi, təşkilati-hüquqi əsaslarının formalaşdığı dövrdə bələdiyyyələrin rayonların sosial-iqtisadi inkişafındakı rolunun artması və daha mühüm əhəmiyyət daşıması, həmçinin bununla bağlı olaraq bu inkişafda bələdiyyələrin konkret mexanizmləri, üsulları, formalarının və təsirinin formalaşdırılması və bu inkişafda mövcud olan problemlərin həm dövlət, həm də regional səviyyədə öyrənilməsi cəmiyyətin həyat səviyyəsinin yüksəldilməsində və əldə olunmasında mühüm əhəmiyyət daşıyır.

Azərbaycan Respublikası Prezidenti tərəfindən 29 Yanvar 2019-cu ildə 2019-2023-cü illər ərzində regionların sosial-iqtisadi inkişafı sahəsində Dövlət Proqramı qəbul edildi. Bələdiyyələrin regionların sosial-iqtisadi inkişafı sahəsində rolu bu proqram üzrə qeyd edilən tədbirlər planına daxil edilmişdir. (https://yap.org.az/az/view/interview/755/belediyyeler-regionlarin-sosial-iqtisadi-inkishafinda-muhum-rol-oynayir)

Qəbul edilən qanuna əsasən tədbirlər planı aşağıda qeyd edilənlərə səbəb olmuşdur.

- Sakinlərin məzil şəraitinin yaxşılaşdırılması
- Sakinlərin ekoloji maarifləndirilməsi
- Mövcud avtomobil yollarının təmiri və yeni yolların tikilməsi

- Abadlıq və quruculuq işlərinin həyata keçirilməsi
- İnfrasruktur sahələrinin artırılması və bərpa edilməsi
- Sosial mədəni obyektlərin, parkların, yaradılması

Bələdiyyələrin “Bələdiyyərin statusu haqqında” Azərbaycan Respublikası qanunu çərçivəsində regionların sosial-iqtisadi inkişafı sahəsində yerli inkişaf proqramı hazırlamaq hüququ vardır. Ekoloji inkişaf məsələləri, parkların, istirahət yerlərinin salınması, sahibkarlığın təkmiləşdirilməsi üçün tədbirlər yerli ekoloji inkişaf proqramlarında göstərilir. Səhiyyə, təhsil, mədəniyyət, mərasim xidmətlərinin təşkili, avtomobil yollarının salınması bələdiyyənin yerli sosial inkişaf proqramlarında göstərilir.

Ümumiləşdirilmiş şəkildə bələdiyyə ərazilərinin sosial-iqtisadi inkişafını əldə etmək üçün aşağıda qeyd dilən problemlər həll edilməlidir:

- Hazırki şəraitdə bələdiyyələrin təkmilləşdirilməsi üçün ümumi yanaşma ərazilərin sosial-iqtisadi inkişafı sahəsində bələdiyyənin əhəmiyyəti və rolu əsaslı şəkildə müəyyənləşdirilməlidir.
- Azərbaycan Respublikasında yerli özünüidarəetmə orqanlarının inkişaf imkanları və mövcud inkişaf səviyyələri qiymətləndirilməlidir.
- Yerli özünüidaəetmə orqanlarının regional problemlərə təsir mexanizmləri həmin regionların sosial-iqtisadi inkişaf amilləri analiz edilərək müəyyənləşdirilməlidir.
- Yerli sosial-iqtisadi inkişafa nail olmaq üçün bələdiyyələr əsas fəaliyyət istiqamətlərini müəyyən etməli və icra edilməlidir.
- Bələdiyyələr yerli büdcənin gəlir və xərclərini ərazinin sosial-iqtisadi inkişafında bələdiyyənin fəaliyyəti təşkil edilməklə balanslaşdırılmalıdır
- Yerli özünüidarəetmə orqanları tərəfindən regionların sosial-iqtisadi inkişafı ilə bağlı təkliflər hazırlanmalıdır.
- Sosial-iqtisadi inkişaf ilə bağlı bələdiyyələr tərəfindən investisiyalar cəlb edilməlidir. Bələdiyyələrin sahibkarlıq subyektlərinə təsir mexanizmləri təhlil edilməlidir.

Yerli özünüiadəetmə orqanlarının (bələdiyyələrin) önündə sosial-iqtisadi inkişaf sahəsində 2 ümumi məsələ durur:

- Sakinlərin sosial-mədəni, məişət və digər sahələri ilə əlaqəli məsələlər

- İqtisadi sahələrdəki inkişafla bağlı məsələlər

Bələdiyyələr regionların sosial-iqtisadi inkişafı ilə bağlı Dövlət Proqramı əsasında Bələdiyyə ərazilərində kiçik sahibkarlıq üçün iqtisadi, sosial və hüquqi şərait yaratmalı, öz ərazisində iqtisadiyyatın inkişafı üçün xidmət sahələri, təsərrüfat subyektləri və bələdiyyə müəssələrinin yaradılamasını təşkil etməlidirlər. Bələdiyyə ərazisində yaradılan belə sahibkarlıq subyektləri bazar iqtisadiyyatının əsasıdır. Bu cür sahibkarlıq fəaliyyəti bələdiyyə büdcəsinin əsas gəlir mənbələrindən biridir. Yaradılan sahibkarlıq ssubyektləri sayəsində yerli sakinlər mövcud iş potensialından yararlana bilərlər və bu sosial gərginliyi azaldan əsas faktordur.

Bələdiyyələr, öz ərazilərində davamlı vergi ödəyicisinə çevrilən bələdiyyə gəlirlərini təmin edən, yerlərdə uzun müddət bizneslə məşğul olan, daim investisiya qoya bilən  sahibkarları cəlb etməyə səy göstərməlidirlər. Bunu təmin etmək üçün də gərək bələdiyyələr sahibkarlığın inкişafını və əlverişli fəaliyyətini təmin edəcək mühit yaratmağı və onlara yardım göstərməyi qarşılarına məqsəd qoysunlar.

Sosial-iqtisadi inкişafın regionlar üzrə inkişafının təмin edilməsi üçün yeni bir siyasət formalaşdırılmalıdır. İlk öncə regionların fərqli xüsusiyyətə malik olmaları araşdırılmaldır və bu xüsusiyyətlər əsasında təsərrüfat subyektləri yaradılmalıdır. Bu siyasətin hazırlanması üçün nəzərə alınmalıdır:

1. Hər bir region üzrə təbii sərvət və resurslardan istifadə imkanları və miqyası
2. Yerli sakinlərin müvafiq təhsil dərəcəsi, bələdiyyə ərazisində olan təhsil müəssələrinin sayı
3. Sahibkarlıq subyektlərinin inkişaf etdirilməsi və yeni invrstisiyaların cəlb olunması baxımından bələdiyyə ərazisində qiymətlər və xərclər
4. Yerli İcra Hakimiyyətləri və bələdiyyələr  arasında sosial problemlərin həll edilməsi baxımından səlahiyyət və vəzifə bölgüsü
5. Regionda mövcud olan işsizlik səviyyəsi ekoloji gərginlik, əhalinin sıxlaşma dərəcəsi

Sosial-iqtisadi inkişaf sahəsində bələdiyyənin rolunu onun bazar iqtisadiyyatına müdaxilə kimi dəyərləndirsək iki məqamın olduğunu görə bilərik. Birinci bələdiyyələr sosial-iqtisadi inkişafı təmin etməklə yerli sakinlərin həyat səviyyəsini yüksəltməli və bu sayədə effektivliyə nail olmalıdır. Bunun üçün bələdiyyələr regionda mövcud olan istehsal potensialından ən uyğun

şəkildə istifadə etməlidir. İkincisi isə, bələdiyyələr yerli sakinlərin rifahını lazimi səviyyəyə çatdırmalıdır.

### 2.2 Bələdiyyələrdə meydana çıxan problemlər

Artıq 25 ildir ki, fəaliyyətə başlayan Bələdiyyələr Azərbaycanda demokratiya prosesinin bir parçası hesab olunur. Beləki bu prosesdə vətəndaşlara yerli idarəetmədə iştirak imkanı verilir və bu demokratiyanın inkişafına müsbət təsir göstərir. Bələdiyyələrin yerli idarəetmədə rolu artırılmalı, onun inkişafına mae olan problemlər aradan qaldırılmalıdır.

Bələdiyyənin fəaliyyətini araşdıran zaman ortaya bəzi problemlər çıxmışdır. Problemlərin yaranma səbənlərinin bu cür qeyd edə bilərik:

- İlk öncə onu deyə bilərik ki, hazırda Azərbaycanda yerli özünüidarə sahəsində praktika və ənənə kifayət qədər aşağı səviyyədədir.
- Azərbaycanda qərb tipli yerli özünüidarə ənənəsinin hələki formalaşmaması (bu ənənənin demək olar ki heç öyrənilməməsi)
- Ölkədə bələdiyyələrin fəaliyyəti ilə bağlı hüquqi tənzimləmənin zamanında həyat keçirilməməsi
- Bələdiyyələrin yerli özünü idarə etmədə fəaliyyətinin həyata keçirilməsi üçün qəbul edilən qərar və qanunların kifayətsiz qalması

Keçmiş post sovet ölkələrinin bəziləri kimi Azərbaycanda da keçid dövründə önəmli problemlər ortaya çıxmışdır. Bu problemlərin bəziləri bu gün də özünü göstərir. Bu problemlərə aşağıdakıları aid edə bilərik:

- İqtisadi maneələr
- Siyasi maneələr
- Maliyyədəki maneələr
- Sosial maneələr

Bu qeyd etdiyimiz problemlər bələdiyyələri aşağıdakı vəziyyətə düşməsinə səbəb olmuşdur.

- Bələdiyyə xidmət göstərə bilməyən bir orqana çevrilmişdir.
- Bələdiyyə orqanlarının fəaliyyəti demokratiklikdən uzaqlaşmışdır

- Bələdiyyələr yerli sakinlərin problemlərini həll edə bilmirlər və öz maiyyə bazasını yarada bilməyən orqan halına gəlmişdir.
- Bələdiyyələr yerli vergi və ödənişləri toplaya bilmirlər

Yerli idarə etmə orqanları ilə sakinlər arasında münasibətlər doğru şəkildə qurulmamışdır. Eyni zamanda belə münasibətin qurulmasında bələdiyyələr düzgün istiqamətləndirilməmişdir. Bələdiyyələr yerli sakinlərlə mütəmadi olaraq təmasda olmalı onlarla bir yerdə öz fəaliyyətlərini icra etməlidirlər. Həmçinin qeyri-hökumət təşkilatları, sahibkarlar da vətəndaş mövqeyindən çıxış edərək birgə fəaliyyətdə öz dəstəklərini göstərməlidirlər.

Problemin digər tərəfində isə, yerli sakinlər ərazilərində fəaliyyət göstərən bələdiyyələrin fəaliyyəti ilə maraqlanmır, bələdiyyə yığıncaqlarında, yerli rəy sorğusunda və layihələrdə iştirak etmirlər, təkliflər irəli sürmür, tədbirlərlə maraqlanmırlar. Halbuкi, bu qeyd edilənlərin tərsi olsaydı, vətəndaşlar yerli özünü iadrəetmədə daha çox səy göstərsə idilər, bələdiyyələr də öz növbəsində daha məsuliyyətlə çalışardılar, vətəndaşlarla aralarındakı münasibət daha da güclənərdi.

Digər problem isə, bələdiyyənin maliyyə vəziyyəti ilə bağlıdır.  Ölkədə olan bir çox bələdiyyə orqanlarının maliyyə vəziyyəti çox zəifdir. Bələdiyyələrə yaxşı gəlir gətirən qaynaqlar verilməmişdir, ya da bələdiyyələr bu qaynaqlardan düzgün istifadə edə bilmir. Hazırki vəziyyətdə bələdiyyənin yerli büdcə vəsaitləri onların saxlanılması üçün ancaq kifayət edir. Bu da öz növbəsində sakinlərin problemlərinin həll edilməsində çətinliklər yaradır. Beləki hazırda ən kiçik məsələ belə mərkəzi hakimiyyətə daşınır, mərkəzi hakimiyyətin qərarı, məmurların imzası gözlənilir. Dövlət rəhbərinin ölkənin 80 şəhərinin və ya rayonunun və onların ümumilikdə 4246 kəndinin sosial problemləri ilə məşğul olması düzgün deyil.

Bir digər önəmli və mühüm məsələ isə, bələdiyyələr tərəfindən yerli vergilərin və ödənişlərin yığılmasında yaran problemlərdir. Bələdiyyələr tərəfindən yığılan mədən və fiziki şəxslərdən alınan əmlak vergisi vergi gəlirlərində xüsusi yer tutsa da  bu sahədə ciddi kəsr müşhidə olunur. Bələdiyyələrə onların ərazisində olan şadlıq evləri, hotellər, sahibkarlıq və ticarət obyektləri, istirahət mərkəzləri və digər obyeklər gəlirlərindən müəyyən qədər gəlir vergisi ödəməli olduqları halda onların çox az hissəsi bu vergiləri ödəyir. Qanunvericilikdə yalnız yuxarıda qeyd edilən ödəyicilər deyil, eyni zamanda yerli sakinlər də əmlak və torpaq vergisini ödəməlidirlər amma

onlar da bu vergiləri ödəməkdən yayınırlar. (Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında Azərbaycan Respublikasının qanunu - https://e-qanun.az/framework/1470)

Hazırda Qazax şəhərində araşdırma zamanı 630 sahibkarlıq (ticarət) obyektinin olduğunu qeyd edə bilərik. Bu obyeklərin hər biri Yerli vergilər və ödənişlər haqqında qanuna əsasən hər il bələdiyyəyə vergi ödənişi etməlidir. Analiz zamanı eyni zamanda Qazax şəhərində ümumlikdə 14000 fərdi yaşayış evi və mənzil olduğu bilindi. Bunlardan 1656-sı məzil, 12344-ü isə fərdi yaşayış evləridir. Qanunvericiliyə əsasən fiziкi şəxslər hüquqi sahibi olduqları fərdi yaşayış evləri üçün hər il əmlak vergisini bələdiyyələrə ödəməlidirlər. Həmçinin Qazax şəhər bələdiyyəsinin ərazisində 6 otel və 7 şadlıq evi mövcuddur. Bu otellər və şadlıq evləri də öz növbəsində bələdiyyəyə qanunvericiliyə uyğun olaraq öz gəlirlərindən gəlir və mənfəət vergsi ödəməlidirlər. Sadə hesablama ilə Qazax şəhər bələdiyyəsinə il ərzində daxil olamalı olan vergi məbləğini hesablaya bilərik. Qeyd edilən sahibkarlq subyekti üçün ortalama olaraq aylıq 5 azn vergi məbləği nəzərə alsaq bu məbləğ ay ərzində ümumi olaraq 3150 azn ($630 \times 5 = 3\,150$) edəcəkdir. İllik olaraq isə, 37 800 azn ($3\,150 \times 12 = 37\,800$) təşkil edəcəkdir. Qeyd edilən məbləğ sakinlər arasında sorğu əsasında orta rəqəm olaraq təyin edilmişdir. Fiziki şəxslər üzrə əmlak vergisi isə, fərdi yaşayış evlərinin sahəsindən asılı olaraq dəyişir. Bu məbləğ də öz növbəsindən sakinlər arasında sorğu əsasında orta rəqəm olaraq təyin edilmişdir. İndi isə fiziki şəxslər üzrə əmlak vergisini hesablasaq illik ödənilməli olan vergi məbləğlərini görə bilərik. Şəhərdə olan 12344 fərdi yaşayış evi üçün $12\,344 \times 25 = 308\,600\, azn$ illik əmlak vergisi təşkil etmiş olur. Bu rəqəmləri umumiləşdirsək, 37 800 azn +308 600 azn = 346 400 azn olacaqdır. Beləliklə təkcə sahibkarlıq (ticarət) obyeklərindən və fiziki şəxslər üzrə əmlak vergilərinin cəmindən Qazax şəhər bələdiyyəsinə 308 600 azn məbləğində vergi daxil olması vardır. Əlbəttə bu məbləğlər ümumi olaraq hesablanmışdır. Çünki vergi məcəlləsinə uğun olaraq fiziki şəxlərə məxsus olan yaşayış təyinatlı əmlaklar üzrə əmlaknın sahəsinin 30 kv.m olan hissəsi vergidən azaddır. ( https://www.taxes.gov.az/az/post/371) Yəni misal üçün hər hansı bir şəxsin 100 kv.m sahəsində yaşayış evi vardırsa onun vergiyə cəlb olunan hissəsi 70 kv.m olacaqdır (100 kv.m - 30 kv.m = 70 kv.m). Amma bununla belə əmlak və torpaq vergiləri üstünlük təşkil etməkdədir. Onu da qeyd edək ki, hesablama zamanı şəhərdə olan otellər, şadlıq evləri və digər obyektlərin gəlir və mənfəət verigisi nəzərə alınmamışdır.

Amma reallıqda isə, bu məbləğlərin bələdiyyə bücəsinə müyyən hissəsi daxil olur. Təhlillər və sorğu əsasında bu nəticəyə gəlindi ki, şəhər ərazisində olan 12 344 fərdi yaşayış evinin çox hissəsinin hüquqi sənədi yoxdur. Yəni evlər bələdiyyənin verdiyi torpaq sənədi ilə kifayətlənirlər. Belə olan halda isə, vergilər yalnız hüuquqi mülkiyyətçisi və çıxarışla təsdiq edilən, sənədi olan vətəndaşlardan alınır, sənədsiz ev sahiblərindən isə, vergi yığılmır. Bu halın qarşını almaq, vergiləri qanunauyğun şəkildə toplamaq üçün evinin sənədi olmayan lakin həmin evdə yaşayan, o evdən istifadə edən şəxslər müəyyən edilməlidir. Yuxarıda qeyd edilən, şəhər ərazizində olan 14 000 ev və mənzil sahibi layihə işinin analizi zamanı rayoda yerləşən rəsmi dövlət qurunlarına müraciət əsasında müəyyən edildi. Rayonda fəaliyyət göstərən Azəriqaz ASC, və Azərİşıq ASC-ə müraciət edərək şəhər ərazisində nə qədər işıq və qaz üzrə kommunal haqq ödəyən aktiv abonent sayının olduğu rəsmi olaraq soruşuldu. Qurumlardan şəhər ərazisində 14 000, rayon ərazisində isə, ümumilikdə 23 500 aktiv abonent sayının olduğu bildirildi. Şəhər ərazisində yaşayan abonetlərədən 1 656 – sı mənzildə, 12 344 - ü isə fərdi yaşayış evlərində məşkunlaşdığı qeyd edilən qurumlar tərəfindən bildirildi. Sənədsiz fərdi yaşayış evlərində yaşayan və aktiv şəkildə kommunal ödənişi edən şəxslər də qanuna uyğun olaraq əmlak vergisi ödəməlidir. Bunun üçün təklif olaraq bildirərək deyə bilərik ki, belə şəxslərin əmlakı (evi) bələdiyyə tərəfindən müvəqqəti ünvana salınmalıdır. Yəni həmin evlər müvəqqəti olaraq ünvanlaşdırılmalıdır. Çünki bu şəxslərin yuxarıda qeyd edilən qurumlar tərəfindən kommunal ödəniş etmələri üçün abonent kodu vardır. Bələdiyyə bu abonent kodu vasitəsilə sənədi olmayan evləri müvəqqəti ünvana salaraq həmin evlərin sahəsi öyrənilməli və onlardan da qanunvericiliyə uyğun olaraq əmlak vergisini almalıdır.

Digər bir problem isə Bələdiyə işçiləri ilə bağlıdır. Bələdiyyələr müasir standartlara uyğun deyillər və vahid komanda şəklində fəaliyəti olmayan klassik idarəçilik qaydaları ilə idarə olunurlar. Çünкi bu qurumun fəaliyyətinin keyfiyyətli olması müəyyən dərəcədə o qurumda olan işçilərin potensialı ilə bağlıdır. İşilər yenilikçi, məsuliyyətli, yaradıcı, işgüzar olmalıdırlar. Beləki bələdiyyə işçiləri yeni təкliflərin irəli sürülməsində, müasir modellərin tətbiqində o qədər də yaxşı deyillər. Eyni zamanda bələdiyyə sədri sakinlər tərəfindən seçilmədiyi üçün onların qarşısında məsuliyyət hiss etmir. Digər tərəfdən isə, bələdiyyələr sanki əhali maraqlarına xidmət edən bir orqan olduqlarını hələ dərk etməyiblər.

### 2.3 Bələdiyyələrin maliyyə əsaslarının təhlili

Azərbacan Respublikasının Konstitutsiya sisteminə əsasən yerli özünüidarəetmə orqanları bələdiyyələr hesab edilir. Respublikada bələdiyyələr şəhər, qəsəbə və kənd bələdiyyələri olaraq 3 yerə bölünür. Hazırda ölkədə 1606 bələdiyyə fəaliyyət göstərməkdə idi. Son qəbul edilən 24.11.2024-cü il tarixli qərara əsasən "Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında" qanuna dəyişiklik edilərək ölkədə bələdiyyələr birləşərək sayları 1606-dan 684-ə endirilmişdir. Qəbul edilən qərara əsasən artıq əhalisinin sayı 3 000 nəfərdən və (vəya) ev təsərrüfatlarının sayı 1 000 –dən az olan bələdiyyələr digər bələdiyyələrə birləşdirilmişdir.

Azərbaycanda bələdiyyələrin maliyyə sistemi:

1. Bələdiyyə büdcəsi
2. Büdcədən kənar fondlar
3. Bələdiyyə krediti
4. Bələdiyyə sığortası
5. Bələdiyyə müəssələrinin təhlili

Bələdiyyələrdə maliyyə sistemini başlıca olaraq bələdiyyə büdcəsi təşkil edir. Bələdiyyə büdcəsi yerli vergi və ödənişlər hesabına formalaşır. "Bələdiyyənin maliyyəsinin əsasları haqqında" Azərbaycan Respublikasının qanununa əsasən yerli büdcənin gəlirlərinə aşağıdakılar aid edilir.

Bələdiyyə büdcəsinə yerli vergilərdən daxil olmalar ( https://e-qanun.az/framework/5231 )

1. fiziki şəxslərin torpaq vergisi;
2. fiziki şəxslərin əmlak vergisi
3. bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlardan mənfəət vergisi;

Bələdiyyə büdcəsinə vergi olmayan gəlirlərdən – yerli ödənişlərdən daxil olmalar: ( https://e-qanun.az/framework/5231 )

1. bələdiyyə mülkiyyətində olan daşınmaz əmlak üzərində reklam daşıyıcısının yerləşdirilməsi ilə bağlı ödəniş

2. bələdiyyə əmlakının özəlləşdirilməsindən, icarəyə və istifadəyə verilməsindən gəlirlər, lotereyalardan daxil olan vəsait, habelə bələdiyyələrin fəaliyyətindən əldə edilən digər gəlirlər
3. kurort rüsumu, mehmanxana rüsumu, avtomobillərin dayanacaqları üçün rüsum, bələdiyyə yollarında təşkil edilmiş parklanma yerlərindən daxil olan vəsait və qanunla müəyyən edilən digər yerli ödənişlər
4. Yerli (bələdiyyə) vergilər və ödənişlərə görə qanunvericiliklə müəyyən edilmiş qaydada hesablanmış faiz və sanksiyalar və sair və qanunla müəyyən edilən digər yerli ödənişlər

Bundan əlavə bələdiyyələrə il ərzində dövlət tərəfindən müəyyən məbləğdə dotasiyalar və subvensiyalar ayrılmaqdadır. Bu məbləğlər təhlillər əsasında toplanılaraq qrafik əsasında aşağıdakı şəkildə tərtib edilmişdir:




| | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 | 2024 |
|---|---|---|---|---|---|---|---|
| Dotasiyalar mln. manat | 5200000 | 4700000 | 5000000 | 5100000 | 5300000 | 5500000 | 6500000 |
| Subvensiyalar mln. manat | 0 | 1000000 | 1200000 | 1300000 | 1300000 | 1550000 | 1550000 |

*Sxem2: Son 7 il ərzində Dövlət tərəfindən Bələdiyyələrə ayrılan dotasiyalar və subvensiyaların məbləği (təhlillər əsasında müəllif tərəfindən hazırlanmışdır)*

Qrafikdə 2018-ci il tarixdən cari tarixədək (2024-cü il) olan Dövlət tərəfindən bələdiyyələrə ayrılan dotasiya və subvensiyaların statistikası verilmişdir. Qrafikdən göründüyü üzrə Dövlət tərəfindən hər bələdiyyələrə ayrılan məbləğ artmaq üzrədir.

Bundan başqa eyni zamanda 2025-ci il üzrə dövlət büdcəsi hazırlanmışdır və növbəti il bələdiyyələrə ayrılan dotasiya və subvensiyalar Dövlət büdcəsinin xərclər hissəsində qeyd edilmişdir. Qeyd edilən məbləğlər statistik şəkildə aşağıdakı şəkildə tərtib edilmişdir.




*Sxem3: 2025-ci il üçün Dövlət tərəfindən bələdiyyələrə ayrılması planlaşdırılan dotasiyalar və subvensiyalar (təhlillər əsasında müəllif tərəfindən hazırlanmışdır)*

Qazax rayonu üzrə bələdiyyə büdcəsinin gəlilərinin və xərclərinin statistik məlumatı aşağıdakı kimi qeyd edilmişdir: ( AR-nın Statistika Komitəsinin saytında öz əksini tapmış bələdiyyə orqanının büdcəsinin icrasına dair statistik bülleteni )

| | |
|---|---|
| **Cəmi gəlirlər ( min manatla )** | 259.4 |
| Vergidən daxil olmalar | 9.7 |
| Fiziki şəxlsərin torpaq vergisi | 53.8 |
| Fiziki şəxslərin əmak vergisi | 39.9 |
| yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi | - |
| bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlardan mənfəət vergisi | - |
| **Vergi olmayan gəlirlər** | 165.8 |
| bələdiyyə mülkiyyətinə daxil olan əmlakın istifadəsindən gələn gəlirlər | |
| küçə (divar) reklamının yerləşdirilməsi və yayımı üçün ödənişlər | 9.0 |
| bələdiyyələr tərəfindən xüsusi ayrılmış torpaq sahəsində stasionar və ya səyyar ticarət, ictimai iaşə və digər xidmətlərə görə ödənişlər | 5.3 |
| sanatoriya-kurort, mehmanxana və turizm xidmətlərinə görə ödənişlər | - |
| avtomobillərin dayanacaqları üçün ödənişlər | 0.1 |
| bələdiyyə əmlakının və torpağın özəlləşdirilməsindən və icarəyə verilməsindən gəlirlər | 109.9 |
| bələdiyyə əmlakının və torpağın özəlləşdirilməsindən | 27.6 |
| bələdiyyə əmlakının və torpağın icarəyə verilməsindən | 82.3 |
| fiziki və hüquqi şəxslərin maliyyə yardımları | - |
| fiziki şəxslərin maliyyə yardımları | - |
| hüquqi şəxslərin maliyyə yardımları | - |
| beynəlxalq təşkilatların və fondların maliyyə yardımları və qrantları | - |
| Azərbaycan Respublikasının dövlət büdcəsindən verilən dotasiya və subvensiyalar | 41.1 |

| | |
|---|---|
| **Cəmi xərclər ( min manatla )** | 244.9 |
| yerli özünüidarəetmə orqanının saxlanılmasına | 144.9 |
| təhsil xərcləri | 0.3 |
| səhiyyə xərcləri | - |
| sosial müdafiə və sosial təminat xərcləri | 33.1 |
| mədəniyyət,incəsənət,informasiya,bədən tərbiyəsi və digər kateqoriyalara aid edilməyən sahədə fəaliyyətlə bağlı xərclər | 0.3 |
| mənzil-kommunal təsərrüfatı xərcləri | 66.2 |
| yanacaq və enerji xərcləri | - |
| kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq,ovçuluq və ətraf mühitin mühafizəsi xərcləri | 0.2 |
| sənaye, tikinti və faydalı qazıntılar üzrə xərclər | - |
| nəqliyyat və rabitə xərcləri | - |
| digər xərclər | - |

Bələdiyyənin effektivliyinin müəyyən edilməsi ilə bağlı əhali arasında sorğu keçirilmişdir. Sorğu zamanı iştirakçılara bələdiyyənin öz fəaliyyətlərini normal icra edib-etməməsi, fəaliyyətindəki effektivliyin az olmasının səbəbləri, bələdiyyəyə vergi ödəyib ödəmədikləri, ödədikləri illik vergi məbləğləri, bələdiyyə seçki qanunvericiliyi və s. mövzuda ümumilikdə 13 sual ünvanlanmışdır. İştirakçıların 56.6 % - i bələdiyyənin öz fəaliyyətlərini normal icra etmədiyini bildirmişdir. 58.7 % iştirakçı bələdiyyənin fəaliyyətinin effektiv olmamasını Rayon İcra Hakimiyyətindən asılılığında görmüşdür. İştirakçıların 75.1 % - i son 1 il ərzində ümumiyyətlə bələdiyyəyə

müraciət etmədiklərini, 15.1 % - i  müraciət etdiyini, 9.4 % - i isə müraciət etsə də nəticə əldə etmədiyini bildirmişdir. Sorğu zamanı bir digər məqam isə iştirakçıların 52.9 % - i bələdiyyənin yerli sakinlərin problemlərini lazimi səviyyədə həll edə bilmədiyini, 30.8 % - i isə qismən həll etdiyini qeyd etmişdir. Bundan başqa iştirakçıların 59 % - i bələdiyyə sədrinin xalq tərəfindən birbaşa seçki yolu ilə seçilməsini bildirmişdir. Sadəcə 7.6 % iştirakçı hazırki seçki sistemini normal olduğunu hesab edir.

Sorğunun maraqlı hissəsi ondan ibarətdir ki, iştirakçıların bələdiyyənin fəaliyyətinin effektivliyinin az olmasını bildirsələr də Yerli İcra Hakimiyyəti və Bələdiyyə idarəetməsinin müqayisəsi zamanı 40.6 % iştirakçı bələdiyyənin səlahiyyəti artırılarsa yerli iadarəetmə üçün kifayət etdiyini bildirmişdir. Sadəcə 9.9  % iştirakçı Yerli İcra Hakimiyyətinə üstünlük vermişdir. 23.8 % iştirakçı isə yeni yaradılan Prezidentin Xüsusi Nümayəndəlik sisteminin tətbiq edilməsini bildirmişdir. Sorğu zamanı sonda iştirakçılardan bələdiyyənin fəaliyyətin 0 – 10 aralığında qiymətləndirmələri istənilmişdir. 25 % iştirakçı hazırki fəaliyyətə 3 vermişdir. 17.3 % iştirakçı fəaliyyətə 0,  15.4 % iştirakçı 5 vermişdir. 3.8 % iştirakçı isə 10 vermişdir. Qiymətləndirmə zamanı 0 ən aşağı 10 isə ən yüksək rəqəm olaraq seçilmişdir.

Sorğu zamanı iştirakçıların çox hissəsi bələdiyyənin fəaliyyətinin effektivliyinin az olmasını Yerli İcra Hakimiyyəti orqanlarından asılı olmasında görmüşdür. Bunun bir neçə səbəbi vardır. Başlıca səbəb mərkəzi hakimiyyət tərəfindən Yerli icra Hakimiyyətinə daha çox səlahiyyət verilməsidir. Bələdiyyə orqanları ilə Yerli İcra Hakimiyyəti orqanlarına verilən üstünlüklər:

- Bələdiyyə başçısı (sədri) əhali tərəfindən seçilən bələdiyyə üzvləri tərəfindən seçilərkən icra başçısı birbaşa olaraq Dövlət rəhbəri tərəfindən təyin edilir.
- Bələdiyyə orqanları Prezident fərmalarına və Nazirlər Kabinetinin qərarlarına riayət erdiyi halda Yerli İcra Hakimiyyəti orqanları bu fərman və qərarlara riayət etməklə bərabər yuxarı hakimiyyət tərəfindən ona verilən birbaşa tapşırıqları da icra edirlər. Bu da onlarda əlavə dominantlıq yaradır
- İcra Hakimiyyətləri Sovet rus idarəetmə sisteminin günümüzə gələn bir uzantısı olduğu halda, bələdiyyələr müasir yerli idarəetmə sisteminin törəməsidir. Buna görə də mərkəzi orqanlar bələdiyyə idarəetməsinə az etibar edirlər.

Bələdiyyələrin və Yerli İcra Hakimiyyəti orqanlarının ziddiyyətli vəzifə səlahiyyətləri aşağıdakı sxemdə göstərilmişdir. https://e-qanun.az/framework/23701 , https://e-qanun.az/framework/4770




*Sxem 4: Bələdiyyələrin və Yerli İcra Hakimiyyəti orqanlarının ziddiyyətli vəzifə səlahiyyətləri*

Yuxarıdaki sxemdə göstərilən səlahiyyət kəsişməsi, bələdiyyənin büdcə problemi, Yerli İcra Hakimiyyətlərinə mərkəz tərəfindən maliyyə yardımalarının göstərilməsi, ərazi sərhədlərinin olmaması bələdiyyənin idarəetməsində peoblemlər yaradır. 1999 – cu ildə bələdiyyələr yenidən formalaşdırılaraq yaradılmışdır. Lakin bələdiyyələr müasir idarəetmənin törəməsi olmasına baxmayaraq Azərbaycan hökuməti hələ də bu müasir idarəetmə formasını yerli səviyyədə lazımınca tətbiq edə bilmir. İcra hakimiyyətlərinin iyerarxik gücü əllərində saxlamaları, köhnə qurum olmaları və eyni zamanda bələdiyyələrə nəzarət etmək səlahiyyətinə malik olmaları onların dominantlılığını daha da artırır.

Azərbaycan Respublikasının Konstitutsiyasında yerli özünü idarəetmə orqanlarının fəaliyyətinin tənzimlənməsi üzrə ayrıca bölmə müəyyən edilmişdir. Yerli İcra Hakimiyyətləri ilə Bələdiyyələr arasında münasibətlərdə başlıca maneə səlahiyyət bölgüsündə yetəri qədər qanunvericiliyin olmamasıdır. Yerli İcra Hakimiyyəti ilə Bələdiyyələr arasındaki funksiyalarda müəyyən

paralellik mövcuddur. Yerli İcra Hakimiyyəti maliyyə və hakimiyyət gücü baxımından dominantdır. "Yerli özünü idarəetmə haqqında" Xartiyada bir hakimiyyət orqanına verilən səlahiyyətlərin başqa bir orqana verilməməsi öz əksini tapmışdır. Funksional baxımdan Yerli İcra Hakimiyyəti və Bələdiyyə orqanalrının bircins olması, yəni eyni işləri görməsi səlahiyyət bölgüsündə çətinlik yaradır. Bu çətinliyin aradan qaldırılması üçün səalhiyyətlərin idarəetmə və siyasi - hüququ baxımdan rasional bölgüsü həyata keçirilməlidir. Bunun üçün də funksional bölgü prinsipləri müəyyənləşəlidir.

Səlahiyyət bölgüsü ilə bağlı problemlərin aradan qaldırılmasına aşağıdakıları göstərmək olar:

- Bələdiyyələrin səlahiyyətləri dəqiq müəyyənləşir və bu səlahiyyətlərin icra edilməsində tam hüququ təmin edilir.
- Bələdiyyələr mərkəzi hakimiyyət orqanlarının nümayəndəsi olaraq onlara həvalə edilən işləri həyata keçirilər.

Bələdiyyənin əsas prinsipı dövlət tərəfindən həyata keçirilməsinə təminat verilən səlahiyyətlərin müəyyənləşməsidir. Hansı ki, bələdiyyələr bu səlahiyyətlərə görə müəyyən qədər məsuliyyət daşıyırlar. Digər xarici dövlətlərdə yerli özünü idarəetmə orqanları su, istilik, qaz təchizatı, ictimai nəqliyyat, yanğın söndürmə, məişət tullantılarının toplanması və emal edilməsi, ərazinin abadlaşdırılması ilə əlaqədar işləri görürlər. Bizim ölkədə isə, yaşadığımız ərazini təhlil etsək görərik ki, kommunal təsərrüfat idarəsi məişət tullantılarını toplayır, rəsmi dövlət qurumları əhalini içməli su və istiliklə təmin edir, nazirliklər məktəblərin, uşaq baxçalarının, elm mədəniyyət obyektlərinin fəaliyyətini, Yerli İcra Hakimiyyəti isə nəqliyyat yollarınn çəkilməsini təmin edir. Hansı ki bu sahələr üzrə əhalidən, müəssisə və təşkilatlardan müəyyən məbləğdə haqq alınır. Dövlət büdcəsindən dotasiya və subsidiya, əhalidən bu kimi haqq almaq imkanı olan sahələrdə mərkəzi hakimiyyət orqanları fəaliyyət göstərir. Lakin bələdiyyələr isə belə gəlirli sahələrdə yetərli imkana sahib deyillər və ya bu cür imkan ümumiyyətlə onlara verilməyib.

# TƏKLİF EDİLƏN HƏLLƏR VƏ ƏN UYĞUN HƏLLİN SEÇİLMƏSİ

1. Yerli İcra Hakimiyyətlərinin ləğv edilməsi, onalara verilən səlahiyyətlərin və vəzifələrin bütünlüklə bələdiyyələrə verilməsi. Çünki bir rayonda yerli özünüidarəetmə üçün bir neçə qurumun yaradılması həm idarəetmədə çətinlik yaradır, həm də görüləcək işlərədə effektivliyin azalmasına səbəb olur. Eyni zamanda bir bölgədə bir neçə eyni funksiyaları həyata keçirən orqanın yaradılması dövlət və mərkəzi hakimiyyət  üçün əlavə xərc və yükdür.
2. Bələdiyyyənin səlahiyyətlərinin artırılması. Bunun üçün qanunvericiliklə bələdiyələrin əraziləri dəqiq müəyyənləşməli, Yerli İcra Hakimiyyətləri ilə vəzifə bölgüsü dəqiq müəyyən edilməlidir, bələdiyyənin bu qurumdan asılılığı götürülməlidir.
3. Yerli vergi və ödənişlərin toplanmasında nəzarət tədbirləri artırılmalıdır. Bələdiyyə ərazisində olan fiziki şəxslərə məxsus fərdi yaşayış evləri həyat yanı torpaq sahələri, sahibkarlıq (ticarət) obyektləri və bu obyektlərin sahələri dəqiq müəyyən edilməlidir. Sənədsiz evlər və obyektlər müəyyən edilməlidir və müvəqqəti olaraq ünvanlaşdırılmalıdır. Artıq bundan sonra hər bir ev və obyek üzrə əmlak vergiləri və digər ödənişlər dəqiq şəkildə toplanmalıdır.
4. Bələdiyyə öz büdcəsini gücləndirməlidir. Bünün üçün bələdiyyə ərazisində biznes fəaliyyətlərinin həyata keçirilməsi təmin edilməlidir. Eyni zamanda bələdiyyə mülkiyyətinə məxsus əmlaklar  və torpaq sahələri icarəyə verilməlidir. Bu fəaliyyətlərdən gələn gəlirlər birbaşa olaraq bələdiyyə büdcəsində toplanmalı və bu büdcədən qanunauyğun şəkildə səmərəli istifadə edilməlidir.
5. Bələdiyyənin kadr bazası genişlənməlidir, ixtisaslı və yaradıcı kadrlar bələdiyyə orqanlarına cəlb edilməlidir. Bu cür kadrların bələdiyyəyə cəlb edilməsi idarəetmənin daha səmərəli və sürətli olmasına gətirib çıxaracaqdır. İxtisaslı və yaradıcı gənc kadrların vəlb olunmaıs  eyni zamanda əhalinin də  bu quruma inam və etibarını artıracaqdır.

Hazırki dövrə və vəziyyətə baxsaq həll yolu olaraq bələdiyyənin vergi və ödənişlərin toplanmasında nəzarət tədbirlərinin bir qədər gücləndirməsi, vergi ödənişlərindən yayınan şəxsləri qanuni şəkildə vergiyə cəlb etməsini ən optimal həll yolu kimi seçə bilərik. Çünki mövcud vəziyyətdə hazırda qanunvericiliklə bələdiyyə səlahiyyətlərinin artırılması, Yerli İcra Hakimiyyəti orqanlaırnın ləğvi (və ya bələdiyyənin bu orqanlardan asılılığının götürülməsi) və yuxarı hakimiyyət orqanlarının bu mövzuya o qədər də müsbət yanaşması yaxın zamanda real olaraq görülmür.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Hazırki dövrdə bələdiyyə mövcud olduğu ərazidə planlaşdırıcı və məqsədyönlü təsir göstərən, yerli məsələləri həll edən, həmin ərazinin sakinləri tərəfindən seçilən, o sakinlərə xidmət göstərən yerli idarəetmə orqanıdır. Bələdiyyələr demokratik orqan olduğu üçün həm dövlət darəçiliyini səmərələşdirdiyi, həm də sakinlərin hüquq və azadlıqlarını qoruduğu, eyni zamanda yerli problemlərin, məsələlərin həllində onların mütəşəkkil iştirakını təmin etdiyi üçün vacib hesab olunurlar

Tədqiqat nəticəsində müəyyən edilən bələdiyyə problemləri:

- Ödənişlərin və vrgilərin yetəri səviyyədə yığılmaması
- Yerli İcra hakimiyyəti ilə bələdiyyə arasında vəzifə və səlahiyyət bölgüsündə sərhədlərin müəyyən edilməməsi və bu səbəblə də Yerli İcra Hakimiyyətinən asılı olmamaları
- Bələdiyyənin öz səlahiyyətlərini tam müəyyən edə bilməməsi
- Köklü bir idarəetmə ənənəsinin olmaması
- Lazimi məlumata sahib ixtisaslaı kadrların azlığı
- Digər ölkələrdəki yerli idarəetmə modellərinin öyrənilməməsi

Problemlərin həlli ilə bağlı aşağıdakı təkliflər irəli sürülmüşür:

- Bələdiyyələr hər il müəyyən məqsədləri və bu məqsədlərə nail olmağa istiqamətlənmiş fəaliyyət strategiyalarının hazırlanması
- Bələdiyyələrin maliyyə potensialının, gəlir mənbələrinin gücləndirilməsi, maliyyə və maddi resurs imkanlarının artırılması, bu sahədə çatışmazlıqların aradan qaldırılması
- Yerli İcra hakimiyyəti ilə bələdiyyələr arasında səlahiyyət bölgüsünün müəyyən edilməsi
- Bələdiyyə seçki qanunverciliyini dəyişməklə sakinlərin bələdiyyə üzvlərini deyil, bələdiyyə sədrini seçməsini təmin etməklə bələdiyyənin onlar qarşısında məsuliyyətlərini gücləndirmək, münasibətlərini tənzimləmək
- Xarici ölkələrin qabaqcıl bələdiyyə orqanlarının təcrübələrinin yerli bələdiyyədə tətbiq etmək
- Fiziki şəxslərdən və sahibkarlardan toplanan vergi və ödənişlərə ciddi nəzarət etmək vətəndaşların bu cür ödənişləri ödəmələri üzrə maarifləndirici tədbirlər görmək

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

Azərbaycan Respublikasının Konstitutsiyası
https://e-qanun.az/framework/897

Bələdiyyələrin Statusu Haqqında Qanunvericilik
https://e-qanun.az/framework/4770

Bələdiyyənin Nümunəvi Nizamnaməsi
https://e-qanun.az/framework/64

Yerli (bələdiyyə) Vergilər və Ödənişlər Haqqında Qanun
https://e-qanun.az/framework/1470

Azərbaycan Respublikasının Vergi Məcəlləsi https://www.taxes.gov.az/az/page/ar-vergi-mecellesi https://www.taxes.gov.az/az/post/371

Bələdiyyələrin birgə fəaliyyəti, birləşməsi, ayrılması və ləğv edilməsi haqqında qanun https://e-qanun.az/framework/505

Yerli İcra Hakimiyyəti Haqqında əsasnamə
https://e-qanun.az/framework/23701

https://yap.org.az/az/view/interview/755/belediyyeler-regionlarin-sosial-iqtisadi-inkishafinda-muhum-rol-oynayir

Bələdiyyələrin maliyyəsinin əsasları haqqında
https://e-qanun.az/framework/5231

AR-nın Statistika Komitəsinin saytında öz əksini tapmış bələdiyyə orqanının büdcəsinin icrasına dair statistik bülleteni https://www.stat.gov.az/

Bələdiyyə Qulluğu Haqqında qanun
https://e-qanun.az/framework/5228

Qəribli E.A., Əzimzadə A.C. "Azərbaycanda Yerli özünüidarə orqanlaırnın maliyyə mənbələrinin müəasir vəziyyətinin təhlili" Bakı 2018 "UNEC"

İbrahimov İ.M. "Bələdiyyə İdarəçiliyi"

# ƏLAVƏLƏR

**Bələdiyyənin effektivliyinin müəyyən edilməsi ilə bağlı əhali arasında keçirilən sorğu**

**Sual 1: Sizcə bələdiyyə öz fəaliyyətini normal icra edirmi?**

a) Bəli edir
b) Xeyr etmir
c) Qismən edir.
d) Bilmirəm, dəqiq deyə bilmərəm

**Sual 2: Əgər bələdiyyənin fəaliyyəti effektiv deyilsə siz bunu nədə görürsüz?**

a) İdarəetmənin zəif olmasında
b) Vergi sisteminin düzgün olmamasında
c) Rayon İcra Hakimiyyətindən asılı olmasında
d) Bilmirəm dəqiq deyə bilmərəm

**Sual 3: Yaşadığınız fərdi yaşayış evinin (həyət evi) rəsmi sənədi (kupçası) varmı?**

a) Bəli
b) Xeyr
c) Sənədləşmə mərhələsindədir.

**Sual 4: Siz hər il bələdiyyəyə illik olaraq əmlak vəya torpaq vergisi ödəyirsizmi?**

a) Bəli ödəyirəm
b) Xeyr ödəmirəm
c) Əvvəllər bir neçə dəfə ödəniş etmişəm

**Sual 5: Əgər əmlak və ya torpaq vergisi ödəyirsinizsə bu məbləğ illik olaraq nə qədərdir? Zəhmət olmasa məbləği qeyd edərdiz.**

**Sual 6: Son 1 il ərzində hər hansı məsələ ilə bağlı bələdiyyəyə müraciət etmisinizmi?**

a) Bəli
b) Xeyr
c) Etsəm də naticə əldə etməmişəm

**Sual 7: Bələdiyyə sizin yaxud digər sakinlərin problemlərini lazımi səviyyədə həll edə bilirmi?**

a) Bəli edir
b) Xeyr etmir
c) Qismən həll edir
d) Bilmirəm

**Sual 8: Hazırki bələdiyə seçki qanunvericiliyi sizi qane edirmi?**

a) Bəli edir
b) Qismən qane edicidir
c) Xeyr qane etmir
d) Başqa bir forma olsa daha yaxşı olar

**Sual 9: Sizcə bələdiyyə qurum olaraq necə formalaşmalıdır?**

a) Seçkili orqan əsasında, sədr xalq tərəfindən seçilməlidir.
b) Sədr təyinat yolu ilə yuxarı orqanlar tərəfindən təyin olunmalıdır.
c) Hazırki sistem forması normaldır.
d) Dəqiq cavab verə bilmərəm

**Sual 10: Digər ölkələrdə olan bələdiyyə sistemləri haqqında məlumatlısızmı?**

a) Bəli məlumatım var
b) Qismən məlumatlıyam
c) Məlumatlı deyiləm

**Sual 11: Yerli İcra hakimiyyəti və Bələdiyyə İdarəetməsi: Hansına üstünlük verirsiz?**

a) Yerli İcra Hakimiyyəti idarəetmə üçün kifayət edir
b) Bələdiyyənin səlahiyyətləri artırılsa kifayət edər
c) Hər ikisinin olması normaldır
d) Fərqli idarəetmə olsa daha yaxşı olar
e) Yeni yaradılan Prezidentin Xüsusi Nümayəndəlik Sistemi təqtbiq edilsin
f) Digər(öz fikrinizi qeyd edə bilərız)

**Sual 12: Sizin fikrinizcə bələdiyyənin normal fəlaiyyəti necə olmalıdır? Zəhmət olmasa fikrinizi bir neçə söz və ya cümlə ilə ifadə edin**

# SORĞU NƏTİCƏLƏRİ

112 cavab

Cədvəldə baxın

Yekun | Sual | Fərdi

Sizcə bələdiyyə öz fəaliyyətini normal icra edirmi?

Diaqramı kopyalayın

106 cavab




Diaqramı kopyalayın

**Əgər bələdiyyənin fəaliyyəti effektiv deyilsə siz bunu nədə görürsüz?**

104 cavab



**Yaşadığınız fərdi yaşayış evinin (həyət evi) rəsmi sənədi (kupçası) varmı?**

105 cavab

Diaqramı kopyalayın




**Siz hər il bələdiyyəyə illik olaraq əmlak vəya torpaq vergisi ödəyirsizmi?**

106 cavab

Diaqramı kopyalayın




**Əgər əmlak və ya torpaq vergisi ödəyirsinizsə bu məbləğ illik olaraq nə qədərdir? Zəhmət olmasa məbləği qeyd edərdiz.**

59 cavab

24 manat

12

-

20

72 manat

50

25

30

**Əgər əmlak və ya torpaq vergisi ödəyirsinizsə bu məbləğ illik olaraq nə qədərdir? Zəhmət olmasa məbləği qeyd edərdiz.**

59 cavab

- Dəqiq bilmirəm
- Bilmirəm
- 34 AZN
- 1000
- 37
- 21 manat 20 qəpik
- 30 manat
- 6 manat torpaq vergisi .

**Əgər əmlak və ya torpaq vergisi ödəyirsinizsə bu məbləğ illik olaraq nə qədərdir? Zəhmət olmasa məbləği qeyd edərdiz.**

59 cavab

- 10mant
- Ödəmirəm, çünki, bina evində yasayıram və yaşadığım bina, Tovuz Peşə Liseyinin tərkibindədir.
  Bir sözlə qaçqın həyatı yaşayırıq.
- 28 man.
- 6
- 6 man torpaq
- 48 manat
- 150-180
- 15 Azn

**Əgər əmlak və ya torpaq vergisi ödəyirsinizsə bu məbləğ illik olaraq nə qədərdir? Zəhmət olmasa məbləği qeyd edərdiz.**

59 cavab

- 36 m
- 45
- Xatırlamıram
- 25 azn
- Xeyir.
- 27
- Xeyir
- Bilmirem

**Əgər əmlak və ya torpaq vergisi ödəyirsinizsə bu məbləğ illik olaraq nə qədərdir? Zəhmət olmasa məbləği qeyd edərdiz.**

59 cavab

- 6 manat
- 40 AZN
- 25man
- 29
- 40
- 15
- 2 azn
- 30manat
- 150 azn

10 manat və üzəri

24 azn

Məbləği bilmirəm, amma ailəm ödəyir.

25 AZN

Odemirem

**Son 1 il ərzində hər hansı məsələ ilə bağlı bələdiyyəyə müraciət etmisinizmi?**

Diaqramı kopyalayın

106 cavab




**Bələdiyyə sizin yaxud digər sakinlərin problemlərini lazımi səviyyədə həll edə bilirmi?**

Diaqramı kopyalayın

104 cavab




Diaqramı kopyalayın
Hazırki bələdiyə seçki qanunvericiliyi sizi qane edirmi?
105 cavab
48,6%
16,2%
14,3%
21%
Bəli edir
Qismən qane edicidir
Xeyr qane etmir
Başqa bir forma olsa daha yaxşı olar


Diaqramı kopyalayın
Sizcə bələdiyyə qurum olaraq necə formalaşmalıdır?
105 cavab
25,7%
59%
Seçkili orqan əsasında, sədr xalq tərəfindən seçilməlidir.
Sədr təyinat yolu ilə yuxarı orqanlar tərəfindən təyin olunmalıdır.
Hazırki sistem forması normaldır.
Dəqiq cavab verə bilmərəm
Namizəd normal o vəzifəni öz istəyi ilə…
şəhərlərdə sədri xalq seçməlidir
Seçkiki orqan əsasında,sədr bələdiyy…
Sakinlər tərəfindən birbaşa seçki yolu…


Diaqramı kopyalayın
Digər ölkələrdə olan bələdiyyə sistemləri haqqında məlumatlısızmı?
105 cavab
34,3%
22,9%
42,9%
Bəli məlumatım var
Qismən məlumatlıyam
Məlumatlı deyiləm

**Yerli İcra hakimiyyəti və Bələdiyyə İdarəetməsi: Hansına üstünlük verirsiz?**

Diaqramı kopyalayın

101 cavab




**Sizin fikrinizcə bələdiyyənin normal fəlaiyyəti necə olmalıdır? Zəhmət olmasa fikrinizi bir neçə söz və ya cümlə ilə ifadə edin**

56 cavab

Bələdiyyə seçkiləri normal, demokratik keçirilməlidir.səlahiyyətləri artmalı,vergilərin yığılmasında bələdiyyənin rolu artırılmalıdır.Hər bir bələdiyyənin sosial şəbəkələrdə rəsmi hesabı olmalı, əhali ilə birbaşa təmas qurulmalıdır.

İcra Hakimiyyətindən aslı olmasa nəsə ola bilər

Öz səlahiyyəti daxilində müstəqil qərarları verməyi bacarmalıdır

Xalqin icinde olmalidir problemi hell etmelidir

Türkiyyə bələdiyyələr modeli nümunə götürülməli

Sərbəst şəkildə qanun çərçivəsində

Sərbəst icra hakimiyyəti qarişmamalıdır bələdiyyələrə.

**Sizin fikrinizcə bələdiyyənin normal fəlaiyyəti necə olmalıdır? Zəhmət olmasa fikrinizi bir neçə söz və ya cümlə ilə ifadə edin**

56 cavab

Səlagiyyəti olmalıdı

Vətəndaşlara xidmət göstərək mövcud problemləre həll yönümlü yanaşmalıdır

Fəaliyyət şəffaf olmalıdır

Səlahiyyətləri artırılmalıdır.

Xalqla birge olmalidir

Sərbəst olmalıdır başqaorqanlardan asıllığı olmamalıdır xalqın icində olmalıdır ,onların problemlərini həll etməlidir və sair .

Xalqin icində olmalıdır problemlərini həll etməlidir .

Bütün hüquqlar qorunmalıdır

**Sizin fikrinizcə bələdiyyənin normal fəlaiyyəti necə olmalıdır? Zəhmət olmasa fikrinizi bir neçə söz və ya cümlə ilə ifadə edin**

56 cavab

Yaxşı

Şəffaqlıq

Serbes olmalidir nezaret olmamalidir

Bələdiyyələrin normal fəaliyyəti tək sənəd arayış və s. verməklə olmamalıdır, bələdiyyələrin yerli idarəetmə organları ilə bərabər olmalıdır, mən təklif edərdim ki, İcra hakimiyyətləri ləğv edilsin və bütün səlahiyyətlər bələdiyyələrə verilsin.
Bir rayonda bələdiyyə və icra, kənd bələdiyyəsi və icra nümayəndəsi bu anlayış mənə aydın deyil, düşünürəm bu işləri bir tək bələdiyyə və ya yerli icra hakimiyyətləri də görə bilər.

Qanunveticilikdə on verilən səlahiyyətləri lazımınca icra etməli vergi sistemi düzgün olmalıdır

Mənim fikrimcə belediye xalqnan yaxın olmalıdı bütün problemləri həll etməlidir xalqa köməy elemelidiler belediyeni xalq özü seçməlidir

**Sizin fikrinizcə bələdiyyənin normal fəlaiyyəti necə olmalıdır? Zəhmət olmasa fikrinizi bir neçə söz və ya cümlə ilə ifadə edin**

56 cavab

- Müstəqil və vətəndaşlar qarşısında hesabatlı olmalıdırlar.
- Səlahiyyətli qurum olmalı
- Bələdiyyə üzvləri seçiciləri qarşısında hesabatlı olmalı, fəaliyyətində icmaya söykənməlidir. İcmanı hədəfə yönəltməyi bacarmalı, qayğıkeş və məsuliyyətli olmalıdır.
- Duzgun xidmet etmelidi ve wikayetleri hell etmelidi
- Vergilərin yığılmasına ciddi nəzarət edilməlidi
- bələdiyyə kimi olmalıdır
- Bələdiyyə xalq tərəfindən seçilməlidir və gəlirləri və xərcləri şəffavlıqla göstərilməlidir.

**Sizin fikrinizcə bələdiyyənin normal fəlaiyyəti necə olmalıdır? Zəhmət olmasa fikrinizi bir neçə söz və ya cümlə ilə ifadə edin**

56 cavab

- Azad operativ obyektiv çalışqan və ən əsası vətənpərvər
- Dəqiq bilmirəm
- Türkiyə də olduğu kimi
- Əhalinin problemlərini aşkar etməli, dinləməli, icra etməlidir.
- Bələdiyyələrə sərbəstlik ve səlahiyyət verilmelidir.
- Olmaldi
- Dəqiq deyə bilmərəm
- Bələdiyyənin fəaliyyəti sadəcə pul yığmaqdan ibarət olmamalıdır. Sadəcə pulla bağlı məsələlərə ciddi yanaşılır. Rüşvətxorluq da aradan qalxsaydı işlər düzələrdi.

**Sizin fikrinizcə bələdiyyənin normal fəlaiyyəti necə olmalıdır? Zəhmət olmasa fikrinizi bir neçə söz və ya cümlə ilə ifadə edin**

56 cavab

Operativ və məsuliyyətli

Bələdiyyə özünü maliyyələşdirən seçkili orqan olmalıdır. Əhalinin problemləri ilə icra hakimiyyəti deyil, bələdiyyələr maraqlanmalıdır, səlahiyyətləri artırılmalı, icra hakimiyyətlərindən asılı qurum olmamalıdır. Hazırda Qazaxda bələdiyyə sədrlərini icra başçısının təyin etdiyini, birini qoyub o birini çıxardığını bilirik. Bu cür müti bələdiyyəçilik olmur. □

İcra hakimiyyətinin səlahiyyətlərinin hamsı seçkili orqan olaraq bələdiyyəyə verilməlidir

Sərbəstlik verilməli,onlara dövlət dəstəyi olmalı

Yaxşi

Belediyye normal azadligi olmalidi

Xalqa xidmət etməlidir

**Sizin fikrinizcə bələdiyyənin normal fəlaiyyəti necə olmalıdır? Zəhmət olmasa fikrinizi bir neçə söz və ya cümlə ilə ifadə edin**

56 cavab

Normaı fəaliyyət etmədikləri üçün dəqiq bilmirəm. Amma mən bələdiyyə sədri kimdir bilmirəm. İdarəetmə sıfır!

Yerli özünüidarəetmə bütünlükdə bələdiyyəlırə verilməli, onların səlahiyyətləri artırılmalıdır. Seçicilər qarşısında hesabatlılığı, fəaliyyətlərində şəffaflığı olmalıdır. İnternet resurslarından istifadə etməklə sakinlər və icma ilə əlaqə yaratmalıdır. Və s.

Tam sərbəst

Bələdiyyə öz fəaliyyətini və illik hesabatlarını açıq şəkildə vətəndaşlarla paylaşmalıdır

Xalq tərəfindən seçilməli və səlahiyyətləri artırılmalı. Korrupsiya minimuma endirilməlidir.

Bələdiyyələr normal fəaliyyətini həyata keçirmək üçün, vergilərin bir qismi mərkəzdən çıxarılaraq bələdiyyələrin büdcəsinə yönləndirmək, və bələdiyyə bu yığılan vergilər ilə ictimai işlər görməli, bələdiyyəsi olduğu inzibati ərazi dairənin problemlərini öz səlahiyyətləri çərçivəsində həll etməlidir, və gördüyü işlər üzrə vətəndaşlar və dövlət qarşısında hesabatını təqdim etməlidir.

Bələdiyyə hər kəsin yanında olub onu müdafiə etməlidir hüquqlarına hörmətlə yanaşmalıdır

BƏLƏDİYYƏLƏR TAM SƏRBƏST QANUN ÇƏRÇİVƏSİNDƏ FƏALİYYƏT GÖSTƏRMƏLİDİR

Vergilərin qanuna əsasən yıgılması və vacib sahəçərə xərclənməsi

Azad olmalı, asılılıq olmamalıdır. Müstəqil olaraq seçki yolu ilə sədr seçilməli və fəaliyyətə başlanılmalıdır.

Selahiyyetleri artirilmalidir

Bələdiyyənin əsas işi xalqa xidmet etmek olmalıdır. Her kes istediği vaxt belediyyeye uraciet etmelidir ve belediyye her bir şexsi diğer işlerini kenara atib qebul etmelidir.

Zəhmət olmasa Bələdiyyənin fəaliyyətini 0-10 aralığında qiymətləndirərdiz.

Diaqramı kopyalayın

104 cavab

